UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:38 PM Page 1

UNİKAL

№44 (2178) 1 dekabr 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az unikal-1@mail.ru



# Tikinti oliqarxlarının maxinasiyası: Vətəndaşları bu "sistem"lə soyurlar



Səh.7

## Nazir: "Təhlükəli vəziyyət yaranarsa, məktəblər bağlana bilər"

*”Hazırda əlimizdə olan məlumatlara əsasən, məktəblərdə qızılca ilə bağlı qapanmanın tətbiqi gözlənilmir”. ”Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev deyib. O bildirib ki, əgər təhlükəli vəziyyət yaranarsa, məktəblərdə bir, yaxud ikihəftəlik qapanmalara gedilə bilər. “Məktəblərdə Səhiyyə Nazirliyinin və Gigiyena və Epidemiologiya mərkəzlərinin statistikasına əsasən, xəstəliyə yoluxma halları azdır. Əgər valideyn övladında xəstəlik əlamətləri müşahidə edirsə, onun poliklinikaya müraciət etməsi tövsiyə olunur. Hazırda əksər məktəblərdə xəstəliyə yoluxma ilə bağlı hansısa ciddi problem müşahidə etmirik. Valideynin övladını peyvənd etdirməsini tövsiyə edirik. Şagirdlərin qısa zaman ərzində, xüsusilə də aşağı yaşlarda peyvənd olunmasını sürətləndirmək lazımdır”.*

Səh.2

## “Azərbaycan Ermənistana güzəştə getmək niyyətində deyil”



*Milli Məclisin deputatı Azər Badamov ”Unikal”a müsahibə verib. O, son vaxtlar ABŞ-ın Azərbaycana qarşı olan münasibətindən, Ermənistanın sülh müqaviləsinin imzalanmasını uzatmasından, Azərbaycan-Ermənistan delimitasiya komissiyasının iclasının əhəmiyyətindən və sair məsələlərdən danışıb.*

Səh.4

## “İkili standartlardan əl çəkin” - Ombudsman



*“Bu gün dünyanın tərəqqipərvər ölkələri və beynəlxalq təşkilatlar hər kəsin yaşamaq, azadlıq və sərbəst hərəkət etmək, mülkiyyət, təhlükəsiz yaşamaq, sağlam ətraf mühitdə yaşamaq, sağlamlığın qorunması kimi fundamental insan hüquqlarının müdafiəsi naminə ikili standartlardan...*

Səh.5

## “Azərbaycan tolerantlıq ənənəsinə görə dünyaya örnəkdir”



*Azərbaycan çoxəsirlik tolerantlıq ənənəsinə malikdir. Elə buna görə əsrlərdir azsaylı xalqlar milliyyətindən, dinindən asılı olmayaraq Azərbaycanda mehriban şəraitdə yaşayır. Azərbaycan xalqı müsəlman dininin daşıyıcısı olsa da, xristian, yəhudi və digər dinin daşıyıcılarına hörmətlə yanaşır.*

Səh.11

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:39 PM Page 2



# Kərimdən Tünzalə Ağayevaya mesaj: "Gəlsin yarımsaatlıq fonoqramını oxusun və getsin"



***"Çox mədəni və lazımi olan sözləri demişəm. Bu, milyonlarla insanın demək istədiyi sözlər idi. Danışmağa ixtiyarım var, təhqir etməmişəm, fikrimi söyləmişəm. İxtiyarım çatır söz deməyə. Məndən iki il əvvəl gəlib sənətə. Tam fərqimiz addadır. Ona dövlət tərəfindən ad verilib, mənə hələ yox".***

Bu sözləri müğənni Kərim Abbasov "Həmin Zaur" verilişində bir neçə gün əvvəl Xalq artisti Tünzalə Ağayeva haqda söylədiyi fikirlərə aydınlıq gətirərkən deyib. O, aparıcının "Bəs, üz-üzə gələndə nə deyəcəksən" sualına isə belə cavab verib: "Hansı fikirdəyəmsə, onu deyəcəyəm. Əslində məclisə yarımsaatlıq müğənnilər gələndə biz öz otağımızda otururuq. Biri-birimizi görmürük. O bütöv toylara getmir. Onun üçün deyil. Gəlsin yarımsaatlıq fonoqramını oxusun və getsin. Mənim xoşuma gəlmir ki, müğənni həmkarını alçaltsın. Sənətdə dostlarım var, onların üstünə gedəndə məndə aqressiya yaranır. Susa bilmirəm, cavab verməyə üstünlük verirəm. Hərənin öz dinləyicisi, səveni var. Çıxıb demək ki, "Məndən yoxdur", xeyr, elə deyil. Mənim onunla heç bir şəxsi qərəzliyim yoxdur. 20 illik sənət fəaliyyətimdə yalnız 2-3 dəfə məclislərdə üz-üzə gəlmişik".

# Xalq artisti Musa və Təranə barədə: "Bu, həmişə belə olub"



***Müğənni Musa Musayevin həyat yoldaşı Təranə Qumralla birgə qonaq olduğu ATV kanalında yayımlanan "7 tamam" verilişindəki çıxışı müzakirə yaradıb.***

O, əmisi, Xalq artisti Niyaməddin Musayev barəsində "Niyaməddin kimi əmi görməmişəm, ona canım qurban, evinə gedəcəyəm, hələ oturub nərd də oynayacağam" sözlərini deyib. Təranə Qumral isə həyat yoldaşının fikirlərinə dəstək çıxaraq "Niyaməddin Musayev Musanın əmisidir deyə yox, xalqın dəyərli, çox qiymətli sənətkarı olduğu üçün biz özümüz də onu sevirik, dinləyirik..." sözlərini deyib. Sosial şəbəkələrdə müzakirələr zamanı bildirilib ki, Niyaməddin Musayev illərdir, M.Musayevlə küsülüdür, aralarında barışıq olmayıb.

Xalq artisti Niyaməddin Musayev Pravda.az-a açıqlamasında qardaşı oğlunun onun barəsində səsləndirdiyi fikirlərə münasibət bildirib.

"Onların danışıqlarını eşitdim. Sağolsunlar, çox səmimi danışdılar. Mənim də onlara hörmətim var, həmişə də belə olub. Musaya dəstək olmuşam. Xahiş edirəm, çox suallar verməyin. Zənnimcə, bu fikrim bəs etdi...", - N.Musayev deyib.

# Sevda Ələkbərzadə İçərişəhərdə bayağı mahnıların səsləndirilməsinə qarşı çıxıb

***"Bayaq burada bayağı musiqinin dinlənilməsi məsələsi müzakirə edildi, lakin problem bu deyil, problem odur ki, bu gün radionu açırsan, həmin bayağı mahnını eşidirsən. Problem odur ki, televizoru açırsan, həmin o bayağı mahnını oxuyanı görürsən, o mahnını eşidirsən".***

Bunu Əməkdar artist Sevda Ələkbərzadə Mədəniyyət və yaradıcı sənayelər forumu çərçivəsində təşkil olunan Musiqi İndustriyası Platformasında "Rəqəmsal dövrdə musiqi sənayesinin eko-sistemdə formalaşması" adlı panel-sessiyada deyib.

"Aparıcılar həmin adamları elə formada təqdim edir ki... Nəticədə, həmin adamlar özlərinə sənətçi deyirlər. Çox üzr istəyirəm, o adamlar musiqiçidirsə, mən musiqiçi deyiləm", - Əməkdar artist qeyd edib.

Sevda Ələkbərzadə bayağı mahnıların gələcək nəsillərə təsiri məsələsinə toxunub. "Balaca uşaq axı bilmir ki, hansı musiqi keyfiyyətlidir, hansı bayağı? O sadəcə görür. Eşidir. Və ona təsir edir. Mən bir dəfə İçərişəhərdə özüm üçün video çəkmişdim. Orada fonda elə bir mahnı səsləndi ki, vallah, nə deyim? Bura İçərişəhərdir. Tarixi məkan. Həmin o cür bayağı musiqi niyə orada səslənməlidir?".



Müğənni televiziya proqramlarına qatılmamasının səbəbini açıqlayıb: "Çünki mən baxıram ki, həmin verilişə iki gün öncə kimlər çağırılıb? Və onlar necə təqdim edilib. Mənim o verilişdə nə işim var? Ayıbdır".



# "Kişi məclislərinə getmirəm" - Xatirə İslam

***"23 ildir toylarda, efirdəyəm. Amma heç vaxt kişi məclisində oxumamışam".***

"Unikal" xəbər verir ki, bu sözləri müğənni Xatirə İslam "Xəbər-ətər" proqramında deyib. O bildirib ki, kişi məclisinə getmir: "Oxuyana da pis baxmıram. Müğənni hər yerdə oxuya bilər".

Xatirə əlavə edib ki, bir vaxtlar yaratdığı xına biznesi artıq bağlanıb: "Xınada oxuyuram, amma dekor işini görmürəm".

# "Bacıma görə evimi, bağımı satdım" - Aynur Dadaşova

***Müğənni Aynur Dadaşova evini, bağını satdığını deyib.***



Axşam.az xəbər verie ki, sənətçi "Rəngarəng səhər" proqramında bacısının müalicəsini qarşılamaq üçün bunu edib: "Bacıma görə evimi, bağımı satdım. Pandemiya idi. Bacım xəstə idi, həkimlər dedi ki, qısa ömrü qalıb. Çox aşağı qiymətə satdım, amma nə edə bilərdim".

Qeyd edək ki, Aynurun bacısı bir müddət əvvəl dübyasını dəyişib.

# "Tez-tez banklara girirəm" - Sevda Sanaliyeva

***"Tez-tez borca düşürəm. Özüm-özümü borca salmağı, əziyyət verməyi sevirəm. Bu günüm üçün yox, özümün və övladlarımın sabahı üçün yaşayan insanam. Bunun üçün isə çox çalışmaq və işləmək istəyirəm. İstəyirəm ki, övladlarımın gələcəyini yaxşı qurum. Əziyyət görməsinlər, tez bir zamanda işləməsinlər, təhsillərini lazımi qədər alsınlar. Bilirəm ki, buna görə çox işləməliyəm ki, uşaqlarım əziyyət çəkməsin".***

Bu sözləri müğənni Sevda Sanaliyeva qonaq olduğu, "İç üzü" yutub layihəsində deyib.

İfaçı tez-tez banka müraciət edərək kredit götürdüyünü açıqlayıb: "İnsan sabahını qurmaq üçün əlində yaxşı maddi imkanı olmalıdır. Buna görə də tez-tez banklara girirəm. Kredit götürüb, sonra bağlayıram. Dinc dayanmıram. Bir dənə bu işi də görüm".

Qeyd edək ki, S.Sanaliyevanın iki dəfə ailəli olub və ayrılıb. Onun iki övladı var.

UNI-42_27 IYUl-QARA.qxd 11/30/2023 9:40 PM Page 3





## Dəyişikliklər hərbçilərin pensiyasına belə təsir edəcək - Açıqlama

***"“Hərbi qulluqçuların statusu haqqında” və “Əmək pensiyaları haqqında” qanunlarda müzakirə edilən dəyişikliklər ilə bağlı çoxsaylı suallara cavab olaraq bildirmək istərdik ki, yeni dəyişikliklər hərbçilərimizin pensiya məbləğlərində artımlara səbəb olacaq”.***

"Unikal" xəbər verir ki, bunu deputat Vüqar Bayramov deyib. O bildirib ki, layihəyə əsasən, minimum xidmət müddətinə görə qulluq stajına görə əlavənin faizi 50-dən 65-ə qaldırılacaq: "Eyni zamanda, 25 ildən yuxarı hərbi xidmətin hər ili üçün müvafiq təminat xərcliyinin -2 faizi (müdafiə sistemində xidmət edən şəxslər üzrə isə - 3 faizi) miqdarında əlavə olunacaq. Bu o deməkdir ki, əgər mövcud qaydalar ilə qulluq stajına görə əlavənin 50 faizi götürülərək pensiya məbləği hesablanırdısa, yeni dəyişikliklərdən sonra bu rəqəm 65 faiz olacaq. Bu da birbaşa pensiya məbləğinin artmasına xidmət edəcək. Qanun layihəsində hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə tələbinin 20 ildən 25 ilə çatdırılması təklif olunur. Dəyişikliklərə əsasən, 1 yanvar 2024-cü ilədək xidmət müddəti ən azı 17 il tamam olan hərbçilərimiz 20 il tamam olandan sonra pensiyaya çıxa bilərlər. Yəni, əgər hərbçimiz 17, 18 və ya 19 il qulluq edibsə və yeni dəyişikliklərdən sonra 25 deyil, 20 xidmət ilindən sonra pensiyaya çıxmaq istəyirsə, qanun buna imkan yaradacaq. Hərbçimiz öz istəyindən asılı olaraq ya 20 xidmət ili tamam olanda pensiyaya çıxa və ya 25 il qulluq edib daha yüksək məbləğ ilə pensiya hüququ qazana bilər. Bu o deməkdir ki, pensiyaya çıxmağa 3 ili qalan hərbiçilərimiz üçün seçim təklif olunur və dəyişikliklər onlara təsir etmir".

Onun sözlərinə görə, dəyişikliklər yalnız hərbçi və hərbi statuslu vətəndaşlarımıza şamil olunur: "Bu dəyişikliklər polislərə şamil olunmayacaq. Onlar mövcud qaydalar ilə pensiyaya çıxmaq hüququnu saxlayırlar. Sadəcə dəyişiklik polis sistemində hərbi status ilə çalışanlara aid ediləcək. Məsələn, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarında çalışanlara dəyişiklik şamil ediləcək".

Deputat qeyd edib ki, hazırda bir çox ali təhsil müəssisələrində qiyabi təhsilin mövcud olmaması səbəbindən və Silahlı Qüvvələrin peşəkar, bilikli və bacarıqlı hərbi qulluqçularla komplektləşdirilməsi məqsədilə "Hərbi qulluqçuların statusu haqqında" qanuna müvafiq dəyişikliyin edilməsi təklif olunur: "Dəyişikliyə əsasən, hərbi qulluqçular müvafiq icra hakimiyyəti oqranının rəsmiləşdirilmiş icazəsi olduqda mülki təhsil müəssisələrində təhsil ala biləcəklər. Zabitlərin həqiqi hərbi xidmət dövründə Azərbaycanın və xarici ölkələrin ali təhsil müəssisələrində təhsilalma müddəti, eləcə də ixtisasartırma, kadrların yenidən hazırlanması, stajkeçmə və kadrların təkmilləşdirilməsi üzrə əlavə təhsil müddəti bir ildən çox olduqda, öz arzusu ilə ehtiyata buraxılma üçün nəzərdə tutulmuş 10 il müddətinə daxil edilməyəcək".

V.Bayramov əlavə edib ki, qanun layihəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları, gizirlər və miçmanlar üçün dinc dövrdə həqiqi hərbi xidmətdə olmağın son yaş həddinin 45-dən 48-ə artırılması təklif olunur: "Bu dəyişikliyin əsas məqsədi adıçəkilən hərbi qulluqçuların hərbi qulluqçu kimi pensiyaya çıxmaq üçün minimum xidmətkeçmə müddətində (25 təqvim ili ərzində) hərbi xidmətdə olmalarının təmin edilməsi, habelə onların təcrübəsindən daha səmərəli və uzun müddət yararlanmaqdır".

# Zakir Qaralovun keçmiş zavodunun bazasında yaradılan şirkət satılır

## Özəlləşdirilməyə çıxarılan "Bakı Mərmər Qranit"in yeni sahibi kim olacaq?

***Azərbaycanda dövlətə məxsus iri müəssisənin özəlləşdirilməsinə başlanılıb. İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti dövlətə məxsus 2 iri müəssisənin özəlləşdirilməsinə başlayıb.***

Bu barədə qurumun müəssisələrə təşkil etdiyi mediaturda bildirilib.

Məlumata görə, bunlardan biri vaxtilə "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-yə məxsus olan və sonradan dövlətin balansına keçən "Akkord Mərmər Qranit" MMC-nin bazasında yaradılmış "Bakı Mərmər Qranit" MMC-dir.

Müəssisənin özəlləşdirilməsi üçün komissiya yaradılıb, inventarlaşdırma aparılıb, müstəqil qiymətləndirici şirkətin iştirakı ilə onun 17 059 000 manat olmaqla nizamnamə kapitalı müəyyən olunub. Bu məbləğ hər birinin nominal dəyəri 100 manat olan 170 590 pay əsasında formalaşıb.

"Bakı Mərmər Qranit" 6,18 ha ərazidə yerləşir, əsas istehsal sahələri mərmər və qranitin kəsilməsi, cilalanması və digər emal proseslərini həyata keçirən mərmər, qranit, penobeton, aqlay daş və daha bir neçə sexdən ibarətdir. Onun layihə üzrə illik istehsal gücü 300.000 kv.m təşkil edir.

Müəssisədə əsasən Türkiyədən alınmış avadanlıqlar quraşdırılıb. Eyni zamanda, müəssisədə Çin, İtaliya, Almaniya və Rusiya istehsalı olan dəzgahlar da mövcuddur. Hazırda müəssisənin özəlləşdirməqabağı sağlamlaşdırılması və potensial investorlar üçün cəlbediciliyinin artırılması istiqamətində tədbirlər həyata keçirilir.

Xatırladaq ki, "Akkord Mərmər Qranit" MMC-nin vaxtilə tərkibində olduğu "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin qeyri-rəsmi sahibi kimi media uzun illərdir sabiq Baş prokuror Zakir Qaralovu göstərir. Bu iddia indiyə qədər təkzib edilməyib.

İndi isə "Akkord Mərmər Qranit"in bazasında yaradılan "Bakı Mərmər Qranit"in özəlləşdirilməyə çıxarılması onun yenidən sabiq Baş prokurora yaxın çevrələr tərəfindən alınıb-alınmayacağına dair suallar yaradıb. Əslində belə bir ehtimalın rellaşması o qədər yüksək qiymətləndirilmir.



Məsələ orasındadır ki, son vaxtlar "Akkord Sənaye Tikinti İnvestisiya Korporasiyası" ASC-nin vergi borclarının həddən artıq yüksəldiyi barədə məlumatlar yayılır. Həmin məlumatlar isə korporasiyanın maliyyə durumunun yaxşı olmadığı yönündə fərziyyələrin ortaya çıxması ilə nəticələnib.

Belə ki, ilin ilk yarısında ASC-nin vergi borcu 13 milyon 960 min 626 manat təşkil edirdi. Sonrakı bir neçə ay ərzində isə şirkətin vergi borcu daha 65 min 927 manat artıb. Bir az da dəqiqləşdirsək, "Akkord"un sentyabra olan vergi borcu 14 milyon 26 min 553 manat olaraq göstərilmişdi. Hərçənd, bununla bağlı şirkətdən yerli mediaya daxil olan açıqlamada bildirilirdi ki, hər hansı bir şirkətə vergi orqanının qərarı əsasında yazılmış vergi məbləği onun təsdiqlənmiş həqiqi borc anlamına gəlmir. Açıqlamada həmçinin qeyd edilirdi ki, vergi borcu kimi yazılan məbləğə etiraz olaraq inzibati qaydada məhkəməyə şikayət verilib. Bu işin nəticəsi barədə məlumat yoxdur.

Onu da deyək ki, yerli medianın yazdığına görə, Zakir müəllim Baş prokuror postundan yola salındıqdan sonra "Akkord" ciddi sıxıntılar yaşamağa başlayıb. Bildirilir ki, uzun müddət Azərbaycanda ən böyük tikinti layihələrinin icrasını həyata keçirərək, dövlət büdcəsindən milyardlarla manat pay alan, paytaxtda və iri şəhərlərdə çoxlu sayda yaşayış kompleksləri, qeyri-yaşayış binaları tikib sataraq külli miqdarda qazanc götürən, ancaq gördüyü işlərin bir çoxu keyfiyyətsiz çıxdığı üçün bazardakı mövqelərini itirən bu şirkət qazandığı tenderlərin icrasına cəlb etdiyi subpodratçılarla problemlər yaşayır, onlara gördükləri işlərin müqabilində ödəniş etməkdə çətinlik çəkir.

Adıçəkilən korporasiya sözügedən iddialara rəsmi reaksiya verməyib.

O ki qaldı ""Bakı Mərmər Qranit" MMC-nin yeni sahibinin kim olacağı sualının cavabına, bu barədə indi konkret nəsə demək çətindir. Hər bir halda həmin cavab özəlləşdirmə prosesi yekunlaşdıqdan sonra tapılacaq.

Onu da deyək ki, Zakir müəllimin keçmiş şirkətlərindən biri olaraq göstərilən "Akkord" qranit-mərmər zavodunun açılışı 2010-cu ilin avqustunda olub. Həmin vaxt bildirilib ki, ölkəmizdə qranit və mərmər məhsullarının istifadəsinə artan tələbat bu istehsal sahəsinin genişləndirilməsi zərurətini yaradıb. "Bu məqsədlə "Akkord" Şirkətlər Qrupu tərəfindən genişmiqyaslı tikinti-yenidənqurma işləri həyata keçirilmiş, daha müasir avadanlıqla təchiz olunan və geniş istehsal imkanlarına malik zavod inşa edilmişdir. Zavodun tikilməsi və yenidən qurulmasına 19 milyon manat vəsait sərf olunub ki, bunun da 3,5 milyon manatını İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondunun güzəştli krediti və Şirkətlər Qrupunun sərmayəsi təşkil etmişdir" - zavodun açılışı zamanı qeyd edilirdi.

***Toğrul Əliyev***

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 4



# "Sərhəd görüş"ünün nəticəsi: Razılaşma sülh müqaviləsindən sonraya qalır

## Politoloq: "Sülh müqaviləsinin mətni razılaşdırılsa, məncə, sərhədlərin delimitasiya məsələsinin həll edilməsi çətin olmayacaq"



***Xəbər verildiyi kimi, 30 noyabr tarixində Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi altında Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın beşinci görüşü keçirilib.***

XIN-dən "Unikal"a verilən məlumata görə, tərəflər delimitasiya məsələlərinin müzakirəsini davam etdirib, bir sıra təşkilati və prosedur məsələləri nəzərdən keçiriblər. Tərəflər Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiya arasında iclasların və birgə işçi görüşlərin təşkili və keçirilməsi Reqlamentinin mətnini ilkin olaraq razılaşdırıblar. Tərəflər Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə layihəsinin razılaşdırılması üzrə işin başlanılması barədə sövdələşiblər, həmçinin komissiyaların görüşlərinin keçirilməsinin intensivləşdirilməsinə dair razılığa gəliblər.

Tərəflər həmçinin Komissiyaların növbəti görüşünün keçirilməsinin tarixi və yerini işçi qaydada müəyyən etmək barədə razılığa gəliblər.

Məsələ ilə bağlı "Unikal"a açıqlama verən politoloq Elxan Şahinoğlu bildirib ki, görüşü faydalı hesab edir: "Ümumiyyətlə, birbaşa danışıqlara ehtiyac var. Bizim vasitəçilərə ehtiyacımız yoxdur. Onlar məsələləri daha da uzadırlar. Hər birinin də özünün müəyyən maraqları var. Birbaşa danışıqlar, sərhəddə görüşlər keçirilməlidir. Gürcüstan da məkan olaraq seçilə bilər. Birgə işçi qrupun iclaslarını da keçirmək vacibdir. Aydın məsələdir ki, bir və ya bir neçə görüşdən nəticə çıxmayacaq, amma bu bir prosesdir və bu prosesin Azərbaycana bir neçə faydası var. Birinci fayda ondan ibarətdir ki, növbəti ildən etibarən biz Ermənistanı razılaşmaya yaxınlaşdıra bilərik. İkincisi, Ermənistanla davamlı danışıqlar aparmaqla Azərbaycana qarşı olan beynəlxalq təzyiqləri də azaltmaq mümkündür. Əgər iki tərəf danışıqlar aparırsa, üçüncü tərəf vəziyyəti gərginləşdirməkdən çəkinəcək. Ona görə də, bu görüşlər və danışıqlar birmənalı olaraq davam etdirilməlidir", - deyə o qeyd edib.

Politoloq delimitasiya prosesinin nə qədər müddət davam edə biləcəyindən də danışıb: "Delimitasiya prosesinin nə qədər müddət davam edəcəyini demək çətindir. Bu, danışıqların gedişatından asılı olacaq. Ümumiyyətlə, sülh müqaviləsinin mətni razılaşdırılsa, məncə, sərhədlərin delimitasiya məsələsinin həll edilməsi çətin olmayacaq. Əsas odur ki, hər iki tərəf bir-birilərinin ərazi bütövlüyünü tanıyıblar. Bu prinsipial məsələ həll olunub. Sülh müqaviləsi imzalansa, digər məsələləri də sürətlə həll etmək mümkün olacaq".

MCP sədrinin müavini Məhəmməd Əsədullazadə isə bildirib ki, heç bir vasitəçi olmadan keçirilən bu görüşdə Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın birgə fəaliyyəti haqqında Əsasnamə layihəsi razılaşdırılıb. Onun sözlərinə görə, belə bir görüşlər dəfələrlə keçirilib, amma işin effektivliyi üçün bu kimi iclaslar, sülh müqaviləsindən sonra olmalıdır: "Ermənistan tərəfinin qeyri-konstruktiv yanaşması fonunda liderlərin ikitərəfli görüşü baş tutmur. Ermənistan məhz üçüncü tərəfin-Vaşinqtonun yaxud Brüsselin vasitəçiliyi ilə danışıqların aparılmasında maraqlıdır. Ermənistan hakimiyyətinin burada əsas məqsədi Azərbaycana qarşı təzyiqlərin formalaşmasına nail olmaqla, öz şərtləri çərçivəsində sülh müqaviləsinin bağlanmasına getməkdir. Qeyd edim ki, növbəti ildən Ermənistan ikitərəfli danışıqlara məcbur olacaq. Bunun üçün prosesi Avropa İttifaqı ilə Türkiyə aparır. Əgər, liderlərin ikitərəfli danışıqları baş tutmasa, sərhəddə keçirilən birgə komissiyanın müzakirəsinin nəticəsi olmayacaq. Avropa İttifaqı prinsipcə ikitərəfli danışıqlarda, məhz Türkiyə vasitəsilə prosesin aparılmasında maraqlıdır. Amma, Vaşinqton burada konkret olaraq öz vasitəçiliyini qabardır. Keçmiş "Minsk qrupu" çərçivəsində öz kurasiyasında sülh müqaviləsinin bağlanmasından yana. Bununla Rusiyanı prosesdən tam çıxarmağı hədəfləyir. Ümumiyyətlə, ABŞ Ukraynada Rusiyanı məğlub etmədən Cənubi Qafqazdan çıxara bilməyəcək. Amma, Vaşinqton hesab edirdi ki, Azərbaycana təzyiq etməklə regionda mövqeyini gücləndirə bilər. Bu siyasət Vaşinqtonun öz əleyhinə işlədi. Ermənistan tərəfindən verilən sülh açıqlamaları reallıqları əks etdirmir, çünki siyasi iradələri yoxdur. Onlara təlimatlar birbaşa Vaşinqtondan verilir".

***M.İbrahimli***



# Türkiyə Milli Təhlükəsizlik Şurasında "Zəngəzur lövhəsi" - TƏHLİL

***Noyabrın 29-da Türkiyə Milli Təhlükəsizlik Şurası 2,5 saat davam edən iclas keçirib.***

İclasda yeddi bəndlik müzakirə portfeli masaya qoyulub. Onları qısa şəkildə belə təsvir edə bilərik:

1. Türkiyənin PKK, FETÖ və İŞİD terror təşkilatları ilə mübarizəsi;
2. Türkiyəyə yönələn təhdidləri mənbəyindəcə yox etmək;
3. İsrail-Fələstin münaqişəsi;
4. İsrail-Fələstin müharibəsinin Türkiyənin qonşusu olan İraqa mümkün təsirləri, Kərkükdə yaşayan türkmanların taleyi;
5. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinə regiondan kənar dövlətlərin müdaxilə etməməsi, Zəngəzur dəhlizi;
6. Rusiya-Ukrayna müharibəsi;
7. Türkiyənin Qara dənizdən Afrikaya, Qafqazdan Balkan regionuna qədər geniş bir coğrafiyada sülh və təhlükəsizlik mühiti yaratmaq üçün səyləri.

Siyasi şərhçi Aqşin Kərimov hesab edir ki, yeddi bəndlik müzakirə portfeli Türkiyənin bir neçə regionu əhatə edən təmsilçilik dairəsini genişləndirmək istiqamətlərini təyin edir:

"Bu gün bir bölgədə baş verən insident və ya hərbi eskalasiya çox asanlıqla digər regiona sıçrayır. Çünki oyunçular aşağı-yuxarı eynidir və biri digərini güzəştə məcbur etmək üçün alternativ regionlardakı kartlarını oynayır. Türkiyə də manevrlərini gücləndirmək və strateji maraqlarını təmin edib onu qoruyub-saxlamaqdan ötrü regional aktor olaraq marağı olan bölgələrə bir paket halında baxır. Artıq şübhə yoxdur ki, Türkiyə məramlarını böyük bir ölçüyə gətirərək özünün təhlükəsizlik və sülh indeksindəki rolunu nəzərəçarpacaq dərəcədə yüksəyə ucaldır. Ancaq yaranan regional münaqişələr və bunun qlobal bazarlardakı əks-sədası Türkiyə üçün bir xeyli çağırışlar da yaradır. Burada Türkiyənin Cənubi Qafqaz regionundakı genişlənən statusuna diqqət edəcəyik. Düzdür, bu bölgədə Türkiyənin uzun müddətdir maraqları olub, lakin onları üstün səviyyədə təmin etmək prosesi İkinci Qarabağ müharibəsinin geosiyasi nəticələrindən sonra başladı. Bu mənada, Qafqaz regionunda yüksəksəviyyəli təmsilçilik müasir Türkiyə üçün yeni bir tendensiyadır.

Bu baxımdan, Türkiyəyə qarşı yönələn və ya istiqamətləndirilən təhdidlərin bir ucu, təbii ki, Ankaranın Cənubi Qafqazdakı arteriyasına da toxunur. Ona görə də Ankara regiona kənar müdaxilələrin qarşısını almaq təşəbbüslərində haqlı tərəf kimi çıxış edir".

A.Kərimov onu da qeyd edib ki, burada Türkiyənin əsas rəqibləri Qərbdən gəlir, hərçənd ki, Böyük Britaniya ilə Ankaranın müştərək sferası fərqli tendensiyaları əhatə edir: "Yeni Londonu çıxmaq şərtilə, ABŞ, Fransa, Almaniya, Kanada kimi Qərb sisteminə daxil olan ölkələrin Cənubi Qafqazdakı gizli gündəliklə iştirakı Ankara üçün o qədər də ürəkaçan deyil. Deməli, Türkiyəyə qarşı qüvvələr eyni zamanda Bakı-Ankara strateji müttəfiqliyindən də narazıdırlar. Türkiyə üçün onları neytrallaşdırmaq vacibdir, buna görə də, Ankara regionda geosiyasi mübarizəni şiddətləndirən problemlərin həllinə tərəfdardır. Türkiyə problemlərin düsturunu hazırlayarkən öz müdafiə qabiliyyətini artıraraq Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinə kilidlənir. Əks təqdirdə isə, Azərbaycanın ata biləcəyi addımlara təhlükəsizlik təminatı verən ölkə kimi Türkiyənin yeri daha çoxunu narahat edəcək.

Türkiyə Milli Təhlükəsizlik Şurasında Zəngəzur dəhlizi ilə əlaqədar müzakirələr aparılması Ankaranın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesinə olduqca geniş bir pəncərədən baxdığını göstərir. Burada Türkiyənin, əsasən, Mərkəzi Asiya və Cənubi Qafqaz körpüsündəki strateji maraqları önə çıxır. Deməli, Türkiyə Zəngəzur dəhlizi ilə əlaqədar yarana biləcək gələcək tendensiyaları yuxarıda göstərdiyimiz yeddi bəndlik vahid paketin daxilində təhlil edərək maraqlarını vahid geosiyasi məkan qavrayışında inkişaf etdirir. Ankaradan Zəngəzur dəhlizinin açılması üçün verilən mesajlar Azərbaycanın regional məqsədlərində əlavə nəticələr əldə etməsi üçün böyük bir stimul olaraq qalacaq".

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 5



# Prezidentdən 5 milyonluq sərəncam



***Prezident İlham Əliyev Bərdə/Ağdam (40 km)?Əsgəran avtomobil yolunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.***

”Unikal” xəbər verir ki, on səkkiz kilometr uzunluğu olan Bərdə/Ağdam (40 km)?Əsgəran avtomobil yolunun yenidən qurulması məqsədilə 5 milyon manat Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

# Məktəbli uşaqların ölüm faktı artıb - Deputatdan çağırış



***“Unikal” xəbər verir ki, bunu Milli Məclisin deputatı Kamilə Əliyeva Ailə, qadın və uşaq məsələləri komitəsi ilə birgə ”Ailə sağlamlığı və dəyərləri qanunvericilik aspektində” mövzusunda keçirilən ictimai dinləmədə deyib.***

“Bu gün uşaqlar arasında ürək çatışmazlığı və səbəblərdən dünyasını dəyişənlər var. Deyə bilərik ki, dispanserizasiya formal xarakter daşıyır. Bu mexanizmə yenidən baxılmalıdır”,- deyə o bildirib.

# Nazir: "Təhlükəli vəziyyət yaranarsa, məktəblər bağlana bilər"

***”Hazırda əlimizdə olan məlumatlara əsasən, məktəblərdə qızılca ilə bağlı qapanmanın tətbiqi gözlənilmir”.***

”Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev deyib. O bildirib ki, əgər təhlükəli vəziyyət yaranarsa, məktəblərdə bir, yaxud ikihəftəlik qapanmalara gedilə bilər.

“Məktəblərdə Səhiyyə Nazirliyinin və Gigiyena və Epidemiologiya mərkəzlərinin statistikasına əsasən, xəstəliyə yoluxma halları azdır. Əgər valideyn övladında xəstəlik əlamətləri müşahidə edirsə, onun poliklinikaya müraciət etməsi tövsiyə olunur. Hazırda əksər məktəblərdə xəstəliyə yoluxma ilə bağlı hansısa ciddi problem müşahidə etmirik. Valideynin övladını peyvənd etdirməsini tövsiyə edirik. Şagirdlərin qısa zaman ərzində, xüsusilə də aşağı yaşlarda peyvənd olunmasını sürətləndirmək lazımdır”.

# İlham Əliyev Dubayda BƏƏ Prezidenti ilə görüşdü



***BMT-nin Iqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28 çərçivəsində təşkil olunacaq Dünya İqlim Fəaliyyəti Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərində səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan ilə görüşüb.***

”Unikal” xəbər verir ki, dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası - COP28-ə ev sahibliyi etməsi və bu tədbirin yüksək səviyyədə təşkil olunması münasibətilə Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana təbriklərini çatdırdı.

Görüşdə Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri arasında dostluq və qardaşlığa əsaslanan əlaqələrin hərtərəfli inkişafından məmnunluq ifadə olundu.

Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətinin sərmayəsi ilə 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyasının təsis edilməsi və onun açılış mərasimində Birləşmiş Ərəb Əmirliklərinin 4 nazirinin iştirakı ölkələrimiz arasında qardaşlığın bariz nümunəsi kimi qiymətləndirildi. Birləşmiş Ərəb Əmirliklərindən olan tərəfdaşlarla imzalanmış sazişlərə uyğun olaraq bərpaolunan enerjinin 10 qiqavata çatdırılacağı vurğulandı.

Söhbət zamanı ölkələrimiz arasında yaradılmış birgə investisiya fondunun əhəmiyyəti qeyd edildi, bunun iqtisadi-ticari əlaqələrimizin və qarşılıqlı sərmayə sahəsində əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyi bildirildi.

SOCAR ilə Əbu-Dabi Milli Neft Şirkəti - ADNOC arasında uğurlu əməkdaşlığın və birgə layihələrdə iştirakın əhəmiyyəti vurğulandı.

Birləşmiş Ərəb Əmirliklərinin “AD Ports Group” şirkətinin Azərbaycan ilə limanlararası, gəmiçilik, nəqliyyat, logistika sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu, Orta Dəhliz istiqamətində nəqliyyat-logistika sahəsində tərəfdaşlığın böyük perspektivlərinin olduğu qeyd edildi.

Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidentini Azərbaycana səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Görüşdə regional məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Baş nazir iclas keçirdi - Tapşırıqlar verdi



***Noyabrın 29-da Azərbaycan Respublikasının İqtisadi Şurasının və Azərbaycan İnvestisiya Holdinqinin (AİH) Müşahidə Şurasının birgə iclası keçirilib.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən “Unikal”a bildirilib ki, Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilən birgə iclasın gündəliyində AİH-nin idarəetməsinə verilmiş Portfel şirkətlərinin 2023-cü ilin 9 ayının yekunları üzrə Fəaliyyət Hesabatı, o cümlədən maliyyə, kommersiya, investisiya və əməliyyat göstəricilərinə dair əsas nəticələr, “Azərbaycan Hava Yolları” və “Azərbaycan Dəmir Yolları” QSC-lərin borc öhdəliklərinin tənzimlənməsinə dair təkliflər, sığorta və rabitə sektoru ilə bağlı cari məsələlər ətraflı müzakirə olunub.

İclasda Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin və Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktoru Ruslan Əlixanovun məruzələri dinlənilib.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müzakirə olunan məsələlər barədə qərarlar qəbul olunub, Maliyyə və Rəqəmsal İnkişaf və Nəqliyyat nazirliklərinə, Mərkəzi Banka və AİH-nin İdarə Heyətinə müvafiq tapşırıqlar verilib.

# İşğaldan azad edilmiş ərazilərdə bələdiyyələr yaradılacaq

***İşğaldan azad edilmiş ərazilərdə bələdiyyələr yaradılacaq.***

”Unikal” xəbər verir ki, bunu Milli Məclisdə keçirilən ictimai dinləmədə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin Bələdiyyələrlə iş sektorunun müdiri Fərid Əliyev deyib.

”Yaxın gələcəkdə işğaldan azad edilmiş ərazilərdə həyat tam bərpa ediləcək və biz orada bütün sahələrdə olduğu kimi yerli özünüidarəetmə sahəsində də inkişafın şahidi olacağıq”, - deyə sektor müdiri bildirib.

# Gələn il Qarabağ Universitetində tədris başlayacaq

***Qarabağ Universitetində 2024-2025-ci tədris ilində 800-1000 tələbənin təhsil alması planlaşdırılır.***

”Unikal” xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev deyib. Nazir bildirib ki, bu rəqəmin 2025-2026-cı illərdə 1600-2000, 2026-2027-ci illərdə 2500-3000, 2027-2028-ci illərdə 3500-4000-ə çatması ehtimal olunur.

”Universitetdə əsas və idarəetmə heyətinin ərazisində daimi 30-40 nəfərin yerləşdirilməsi nəzərdə tutulur. Professor və müəllim heyətinin intensiv modullar əsasında səfəri və onlayn qaydada tədrisin təşkili planlaşdırılır. Müəllimlər Şuşa şəhərində və ya Xankəndində universitetin kampusunda yaşayacaqlar. Universitet 3 korpus, 119 auditoriya, 2 kitabxana, 2 idman zalı, 1 yataqxanadan ibarət olacaq”, -deyə nazir bildirib.

E.Əmrullayev onu da qeyd edib ki, Qarabağ Universitetində 16 ixtisas tədris olunacaq. Nazir bildirib ki, universitetdə ibtidai sinif müəllimliyi, məktəbəqədər təhsil, riyaziyyat müəllimliyi, informatika müəllimliyi, korreksiyaedici təlim, təhsildə sosial-psixoloji xidmət, informasiya texnologiyaları, kompüter elmləri, kompüter mühəndisliyi, qida mühəndisliyi, şəhərsalma, inşaat mühəndisliyi, beynəlxalq münasibətlər, regionşünaslıq, tarix, kommunikasiya və rəqəmsal media, beynəlxalq ticarət və logistika, biznesin idarə edilməsi, iqtisadiyyat, maliyyə-marketinq, menecment, mühasibat, turizm işinin təşkili və turizm bələdçiliyi ixtisasları tədris olunacaq: ”Tələbə qəbulu ilkin plana əsasən birinci kurs üzrə Dövlət İmtahan Mərkəzinin qəbul imtahanları, ikinci kurs üzrə Elm və Təhsil Nazirliyinin “SABAH” qruplarına müsabiqə əsasında, ikinci və üçüncü kurs üzrə isə mübadilə proqramları və ya yerli universitetlər ilə ikili diplom proqramları ilə həyata keçiriləcək”.




Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 6



# Parlamentdə nazir müavinləri, komitə sədrlərinin iştirakı ilə dinləmə keçirilib

***Milli Məclisin Ailə, qadın və uşaq məsələləri və Səhiyyə komitələrində "Ailə sağlamlığı və dəyərləri qanunvericilik aspektində" mövzusunda birgə ictimai dinləmə keçirilib.***

"Unikal" xəbər verir ki, ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova müzakirəyə çıxarılan mövzunun vacibliyindən danışaraq, ailənin həm şəxsiyyət, həm də cəmiyyət üçün böyük əhəmiyyətə malik ümumbəşəri dəyər olduğunu qeyd edib. O, ailə institutunu sosial, mədəni, iqtisadi və siyasi dəyişiklikləri əks etdirən dinamik sosial qurum kimi dəyərləndirib. Komitə sədri belə aktual mövzuların ictimai müzakirəsinin keçirilməsi üçün yaratdığı şəraitə görə Milli Məclisin rəhbərliyinə, parlamentin spikeri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib.



Komitə sədri bildirib ki, Prezident İlham Əliyev tərəfindən ailə institutunun möhkəmləndirilməsi, onun sosial rifahının yaxşılaşdırılması, ailə üzvlərinin hüquqlarının müdafiəsi sahəsində mühüm addımlar atılıb. Bu sahədə lazımi qanunlar qəbul edilib, dövlət proqramları həyata keçirilir. O, qeyd edib ki, nikah yaşının tənzimlənməsi və nikaha məcbur etmə ilə bağlı Ailə və Cinayət məcəllələrinə edilən əlavə və dəyişikliklər, həmçinin, nikahdan öncə tərəflərin tibbi müayinədən keçməsinin məcburi olması, gender bərabərliyinin təminatları, məişət zorakılığının qarşısının alınması, uşaqların zərərli informasiyadan qorunmasına dair qanunların qəbul edilməsi ailə institutunun müdafiəsi sahəsində önəmli rol oynayır. O, ailə institutunun dəstəklənməsi istiqamətində Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva tərəfindən ölkədə bu sahədə çoxsaylı layihələrin həyata keçirildiyini söyləyib.

Hicran Hüseynova bildirib ki, qanunlarımızda nikaha girən tərəflərin vəzifə və öhdəlikləri, valideynlik vəzifələri, uşaqların hüquq və öhdəlikləri aydın şəkildə göstərilir. Eyni zamanda, təcrübə göstərir ki, hər iki valideyn uşağın maddi ehtiyacları ilə yanaşı, həm də mənəvi, psixoloji, sosial-mədəni ehtiyaclarını qarşılamalıdır. Xüsusilə də ataların uşağın qayğısında və onun təlim-tərbiyəsində iştirakı həm ailədaxili münasibətlərə, həm də uşağın şəxsiyyət kimi formalaşmasına müsbət təsir edir.

Sonra parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov çıxış edib. O, bugünkü dinləmədə aktual məsələnin müzakirə olunduğunu bildirib. Komitə sədri ailə dəyərlərinin təbliği, sağlam ailə mühitinin formalaşdırılması, milli-mənəvi dəyərlərin qorunmasının vacibliyindən danışıb, ölkə Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın bu sahəyə daim diqqət və qayğı ilə yanaşdıqlarını vurğulayıb. O, qeyd edib ki, dövlət başçısı tərəfindən ana və uşaqların hüquqlarının təmin edilməsi, onların sağlamlığının qorunması ilə bağlı bir çox sənədlər imzalanıb. O, Milli Məclisdə də bu sahənin qanunvericilik bazasının daim təkmilləşdirildiyini söyləyib.

Əhliman Əmiraslanov çıxışında ölkədə ana və uşaq ölümü ilə bağlı vəziyyətdən, bu problemin aradan qaldırılması istiqamətində görülən işlərdən danışıb. O, səhiyyə qurumlarının maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının yaxşılaşdırılması, mütəxəssislərin hazırlanması istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətindən bəhs edib. Bu sahədə qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyini qeyd edən komitə sədri Ailə Məcəlləsinə edilən dəyişiklikləri, qəbul edilən digər qanunvericilik aktlarını diqqətə çatdırıb.

İctimai dinləmədə səhiyyə nazirinin müavini İlqar Qasımov Səhiyyə Nazirliyinin ana ölümü ilə və ölümlə nəticələnməyən ağırlaşmalarla bağlı fəaliyyəti barədə danışıb. O, bildirib ki, regionlarda selektiv abortlarla bağlı maarifləndirmə işləri aparılır və görülən işlərin müsbət dinamikası müşahidə olunmaqdadır.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov uşaq və gənclərimizin ailə dəyələrinə hörmət ruhunda tərbiyə olunmasının əhəmiyyətini vurğulayıb. O, Elm və Təhsil Nazirliyinin milli, mənəvi və ailə dəyərlərinin təbliği istiqamətində həyata keçirdiyi layihələr barədə məlumat verib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin mavini Vüsal Nəsirli bildirib ki, təmsil etdiyi nazirlik ailə institutunun möhkəmləndirilməsi, uşaqların hüquqlarının qorunması istiqamətində müvafiq tədbirlər görür. O, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyətləri çərçivəsində valideyn himayəsindən məhrum olan uşaqların müəssisələrə yerləşdirilməsi, həmçinin həmin müəssisələrdən ailələrə inteqrasiya edilməsi istiqamətində gördüyü işləri diqqətə çatdırıb, sosial dəstək mexanizmlərindən danışıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov dini icmalar tərəfindən ailə adət və ənənələrinin qorunub saxlanılması, təbliği istiqamətində həyata keçirilən tədbirlərdən danışıb, bu sahədə maarifləndirmə işinin əhəmiyyitini qeyd edib. O, təmsil etdiyi Komitənin nəzdində yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondunun mənəvi dəyərlərin inkişafı, o cümlədən ailə institutunun möhkəmləndirilməsi sahəsində fəaliyyətindən bəhs edib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova icbari tibbi sığorta çərçivəsində ana və uşaqlara göstərilən tibbi xidmətlər barədə fikirlərini bölüşüb, bu sahədə maarifləndirmə işinin vacibliyini qeyd edib.

Mövzu ilə bağlı müzakirələrdə deputatlar Kamilə Əliyeva, Sədaqət Vəliyeva, Müşfiq Məmmədli, parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev, Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin şöbə rəisi İmran Əliyev, Ədliyyə Nazirliyinin baş məsləhətçisi Aygün Şahbanova, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Taliyə İbrahimova çıxış ediblər. Müzakirələrdə ailə institutunun möhkəmləndirilməsi, erkən nikahların qarşısının alınması, qadın və uşaqların sağlamlığının qorunması, ailələrin sosial rifahının yüksəldilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Çıxışlarda bu gün ölkəmizdə ailə siyasəti sahəsində möhkəm qanunvericilik bazasının olduğu bildirilib.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova tədbirə yekun vuraraq, məsələnin vacibliyini bir daha qeyd edib və səsləndirilən təkliflərə münasibət bildirib.

İctimai dinləmədə Bakı şəhər Baş Səhiyyə Mərkəzinin direktoru Elçin Əmirov, Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva, aidiyyəti qurumların nümayəndələri, Qeyri-Hökumət Təşkilatlarının təmsilçiləri və digər rəsmi şəxslər iştirak ediblər.

***A.Kəlbiyev***



## Azərbaycan-Rusiya sərhədindəki gözlənilməz hallarla bağlı saziş təsdiqləndi

***Prezident İlham Əliyev "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında Azərbaycan-Rusiya dövlət sərhədindəki avtomobil buraxılış məntəqələrində gözlənilməz halların xəbərdar edilməsi və nəticələrinin aradan qaldırılması sahəsində qarşılıqlı fəaliyyət haqqında Saziş"in təsdiq edilməsi barədə fərman imzalayıb.***

Fərmana əsasən, 2023-cü il oktyabrın 31-də Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Federal Gömrük Xidməti (Rusiya Federasiyası) arasında Azərbaycan-Rusiya dövlət sərhədindəki avtomobil buraxılış məntəqələrində gözlənilməz halların xəbərdar edilməsi və nəticələrinin aradan qaldırılması sahəsində qarşılıqlı fəaliyyət haqqında Saziş" təsdiq edilib.

Bu fərmanda göstərilən saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir.

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərməlidir.

## Milli Məclisin komitə sədrlərinə yeni "Mercedes"lər verildi

***Milli Məclisin komitə sədrlərinin istifadəsinə yeni xidməti avtomobillər verilib.***

"Unikal"ın "Report"a istinadən xəbərinə görə, artıq bir müddətdir ki, komitə sədrləri "Mercedes E 300" markalı avtomobillərdən istifadə edirlər.

Hazırda parlamentin 15 komitəsi var.

Qeyd edək ki, Milli Məclisin noyabrın 15-də keçirilən plenar iclasında "Azərbaycan Respublikası Milli Məclisinin 2024-cü il üçün xərclər smetası haqqında" qərar layihəsinin müzakirəsində parlamentin İşlər müdiri Firudin Hacıyev bildirib ki, qanunverici orqanın builki xərclər smetasında nəzərdə tutulan vəsaitlər hesabına avtoparkın maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə avtomobillər alınıb və avtopark yenilənib.

## ATƏT İrəvan-Bakı dialoqu üçün platforma təklif edir

***ATƏT rəhbərliyi İrəvanla Bakı arasında sülh müqaviləsinin bağlanmasına yönəlmiş dialoqun tərəfdarı olub.***

"Unikal" xəbər verir ki, bu barədə ATƏT-in fəaliyyətdə olan sədri və Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani xarici işlər nazirlərinin Skopye görüşündə bildirib.

"Rəhbərlik Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin bağlanmasına yönəlmiş siyasi prosesin davam etdirilməsini dəstəkləyir", - Osmani deyib.

O, ATƏT-in konstruktiv dialoq platforması təklif etdiyini vurğulayıb.

***Ağarza Elçinoğlu***

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 7





# Komitə sədri beynəlxalq konfransın iştirakçıları ilə görüşüb

***Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov "Azərbaycanda Qızılbaş irsi: tarixin izi ilə" mövzusunda keçirilən beynəlxalq konfransın iştirakçıları ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan tarixinə mədəni, fəlsəfi baxımdan yeni baxış bucağının ortaya qoyulmasının, türk xalqları tarixinin daha dərindən araşdırılması üçün müxtəlif ölkələrin alimlərinin və qlobal şirkətlərdə çalışan mütəxəssislərin bir araya gətirilməsinin tarixi bir addım olduğu qeyd edilib. Prezident İlham Əliyevin Azərbaycanın həqiqi tarixinin tədqiqi, tariximizin dünya azərbaycanlıları, eləcə də Azərbaycanın dostları arasında təbliği istiqamətindəki tövsiyələri və komitənin mütəmadi olaraq bu tövsiyələrə uyğun beynəlxalq əhəmiyyətli tədbirlər təşkil etməsi barədə qonaqlara ətraflı məlumat verilib.

Konfrans iştirakçıları komitənin dəstəyi ilə belə bir beynəlxalq elmi konfransın keçirilməsini tarixi hadisə kimi qiymətləndiriblər. Bu hadisənin bütün türk dünyasının tarixinə yeni baxış bucağının ortaya qoyulması, tarixin tədqiq olunmamış səhifələri ilə bağlı araşdırmaların başlanması və qızılbaşların tarixi vətənləri olan Azərbaycanla bağlarının möhkəmlənməsinə şərait yaradacağı diqqətə çatdırılıb.

Qeyd olunub ki, "Azərbaycanda Qızılbaş irsi: tarixin izi ilə" beynəlxalq konfransının müzakirə mövzuları, panel çıxışları dünya alimlərinin diqqətini çəkə bilən və yeni maraqlı müzakirələrə meydan verən mövzulardır. Qonaqlar komitənin qızılbaş irsinin araşdırılması istiqamətində atılan addımları davam etdirəcəyini, dünya alimlərinin yenidən bir araya gətirilməsi üçün sistemli işlər görəcəyini təqdir ediblər.

Qızılbaş Qlobal İrsi Təşkilatının sədr müavini Arşi Qızılbaş konfrans iştirakçılarının, qızılbaş əsilli soydaşlarımızın tarixi vətənləri olan Azərbaycana gəlməkdən böyük məmnunluq hissi keçirdiklərini, bu səfərin dünya qızılbaşlarının Azərbaycanla əlaqələrinin möhkəmləndirilməsi və tarixi köklərinə qayıdışı istiqamətində böyük addım olacağına inamını ifadə edib.

Konfrans iştirakçıları üç il əvvəl Qızılbaş Qlobal İrsi Təşkilatının yaradılmasına, qızılbaş mövzusunun ilk dəfə və geniş elmi çərçivədə müzakirəsinə, səfər çərçivəsində Şuşada olmalarına və oradan təşkilatın bəyanatını səsləndirərək Azərbaycan həqiqətlərini dünyaya yaymaq fürsəti qazandıqlarına görə komitəyə təşəkkür ediblər.

Xatırladaq ki, konfransda Qızılbaş Qlobal İrsi Təşkilatının Pakistan, Türkiyə, ABŞ, Kanada, Birləşmiş Krallıq, Sinqapur və Əfqanıstan üzrə təmsilçiləri, Milli Məclisin deputatları, qızılbaş irsinin Azərbaycan və Türkiyədən olan tədqiqatçıları, müxtəlif dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

# "Azərbaycan Ermənistana güzəştə getmək niyyətində deyil"

## Azər Badamov: "Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmi sənədlə təsdiq etməli və anklavların qaytarılması məsələsini həll etməlidir"

***Milli Məclisin deputatı Azər Badamov "Unikal"a müsahibə verib. O, son vaxtlar ABŞ-ın Azərbaycana qarşı olan münasibətindən, Ermənistanın sülh müqaviləsinin imzalanmasını uzatmasından, Azərbaycan-Ermənistan delimitasiya komissiyasının iclasının əhəmiyyətindən və sair məsələlərdən danışıb.***

***-Azər müəllim, son vaxtlar ABŞ-ın Azərbaycana qarşı mövqeyini necə qiymətləndirirsiz?***

-Son günlər ABŞ Azərbaycana qarşı qərəzli təzyiq üsulundan istifadə etməyə çalışdı. Belə ki, 15 noyabrda Nümayəndələr Palatasının Beynəlxalq Məsələlər Komitəsində keçirilən dinləmələr zamanı ABŞ Dövlət katibinin köməkçisi Ceyms O'Brayn Azərbaycana qarşı hədə dilində açıqlamalar səsləndirərək dövlətlərarası münasibətlərin əvvəlki kimi olmayacağını bildirmişdi. O cümlədən Azərbaycanın ABŞ-a yüksək səviyyəli səfərlərini dayandırdığını açıqlamışdı. Həmçinin, Azərbaycanda agentura şəbəkəsini işə salmağa çalışdımışdı. Azərbaycan dövləti ABŞ-ın hədələrinə adekvat cavab verdi və ünvanımıza səsləndirilən bütün ittihamları rədd etdi. ABŞ-ın Azərbaycana qarşı qərəz nümayiş etdirməsinin kökündə iki məsələnin dayandığını hesab edirəm. Birinci məsələ odur ki, ABŞ Azərbaycana qərəz nümayiş etdirməklə Cənubi Qafqazda yerləşmək istəyir. Belə ki, ermənilərin istəklərinə əməl etməklə Rusiyanı Ermənistandan sıxışdırıb çıxara biləcəklərini düşünürdülər. Amma məlum oldu ki, Ermənistana etibar edib Azərbaycanla münasibətlərini gərginləşdirmək səhv yoldur. İkinci məsələ isə ABŞ İran ərazisindən keçməklə Naxçıvanla birləşəcək yolun tikintisinə qarşıdır. Çünki bu yol Orta Dəhlizin tərkib hissəsi olacaq və İran-ABŞ münasibətlərinə ziddir. Azərbaycan açıq şəkildə bəyan etdi ki, biz müstəqil ölkəyik və beynəlxalq əməkdaşlıq formatlarını da müstəqil şəkildə müəyyənləşdiririk.

Nəhayət bu məsələlərdən bir neçə gün keçdikdən sonra ABŞ gördü ki, Azərbaycanla təzyiq və diktə dili ilə danışmaq mümkün deyil. Ona görə də ABŞ Dövlət katibi Antoni Blinken cənab Prezident İlham Əliyevə telefonla zəng edərək məsələləri bir daha müzakirə etdi. Ölkə başçımız ABŞ-ın əsassız qərəzli münasibətinin qəbul edilməzliyini bir daha Blinkenin diqqətinə çatdırdı. Blinken köməkçisinin dekabr ayında Bakıya səfərinə icazə verilməsini xahiş etdi. Dövlət başçımız belə səfərlərin qarşılıqlı olmalı olduğunu bildirdi. Blinken Azərbaycanın şərtlərini qəbul etdi. Hesab edirəm ki, Blinkenin bu zəngi ABŞ-ın Azərbaycana qarşı göstərdiyi qərəzli münasibətin etirafıdır. Proseslər onu göstərdi ki, Azərbaycanla əməkdaşlıq etmədən Cənubi Qafqazda siyasətini yürütmək mümkün deyil. Bu gün Cənubi Qafqazın gündəliyini Azərbaycan müəyyənləşdirir. Blinkenin zənginin Azərbaycanla pik həddə çatmış gərginliyi azaltmaq məqsədi daşıdığını hesab edirəm. Azərbaycan qalib dövlətdir və siyasətimiz milli maraqlarımıza əsaslanır. Heç bir dairə dövlətimizi məqsədimizdən yayındıra bilməz. Məqsədimiz isə Cənubi Qafqazı sülh və əməkdaşlıq məkanına çevirməkdir.

***-Azərbaycanla Ermənistan arasındakı danışıqlar prosesi barədə danışaq. Hazırda Ermənistan sülh müqaviləsinin mətnindəki bəzi məqamlardan danışıqlar prosesini uzatmaq üçün bəhanə kimi istifadə edir. Sizcə, Ermənistan sülh müqaviləsi məsələsini niyə uzadır?***

-Ermənistan rəhbərliyi son günlər sülh müqaviləsi ilə bağlı fikirlər səsləndirsə də, sülhdən uzaqdır. Çünki Ermənistan Azərbaycana qarşı saxta etnik təmizləmə ittihamları səsləndirməklə Qərbdən 100 milyonlarla yardımlar alır. Paşinyan görür ki, Azərbaycanla sülh müqaviləsinin imzalanmasını uzatmaqla yazıq sifətini çıxardaraq Qərbdən yenə yardımlar almaq mümkündür. Ona görə də sentyabrın 11-də təqdim etdiyimiz təkliflərə 70 gündən sonra cavab verilib. Ermənistan bir tərəfdən sülh istədiyini səsləndirir, digər tərəfdən sülhün yaranmasına mane olur. Belə ki, Qərb ikili standartlardan yanaşaraq Ermənistanı silahlandırır. Hətta Avropa İttifaqının Sülh Fondu tərəfindən Ermənistana silahların göndərilməsi ilə bağlı qərar qəbul edilib. Sülh Fondunun bu hərəkəti həm gülməli, həm də ağlamalıdır. Ona görə ki, fondun adı sülh olsa da, əməldə Ermənistanı silahla təchiz edir. Silah olan yerdə sülhdən danışmaq absurddur. Ermənistan bu gün düşünür ki, Qərb gəlib Azərbaycanla müharibə edib Qaarabağı Ermənistana qaytaracaq. Amma anlamırlar ki, Qərb Azərbaycanla döyüş meydanında heç vaxt üz-üzə gəlməyəcək. Ermənistan Qərbən aldığı silahlardan ruhlanaraq yenidən revanşizmə cəhd edərsə, özü-özünün məhvinə hökm oxumuş olacaq. Azərbaycan hər zaman olduğu kimi sülh müqaviləsinin imzalanmasına hazır olduğunu bəyan edir. Artq Qazax-İcevan arasındakı şərti sərhəddə baş nazir müavinlərinin 5-ci ikitərəfli görüşü də baş tutdu. Sülh müqaviləsinin imzalanması üçün iki məsələ öz həllini tapmalıdır. Birinci məsələ Ermənistan beynəlxalq hüquqa hörmət etməlidir. Belə ki, Azərbaycanın suverən əraziləri olan 8 kəndin qaytarılması məsələsini reallaşdırmalıdır. İkinci məsələ isə Azərbaycana qarşı ərazi iddialarından birdəfəlik əl çəkməlidir. Belə olan halda sülh müqaviləsinin imzalanması üçün hər hansı bir mane qalmayacaq.



***-Ötən gün Azərbaycan-Ermənistan delimitasiya komissiyasının iclası keçirilib. Bu görüşdə bəzi məsələlər üzrə razılığa gəlinib. Bu görüşün əhəmiyyətini necə qiymətləndirirsiz?***

-İkitərəfli görüşlərin keçirilməsini müsbət dəyərləndirirəm. Ölkələrimiz arası sülhə nail olmaq üçün vasitəçi olmadan ikitərəfli formatda məsələlər müzakirə olunmalıdır. Sülh müqaviləsi ilə bağlı əsas məsələlər razılığa gəlsə də, hələ ölkələrimiz arası sülhə mane olan bir neçə məsələ qalmaqdadır. Bu məsələlərdən biri də anklavlarla bağlıdır. Düzdür, bu gün keçirilən görüşdə müəyyən qərar qəbul olunmasa da, məsələlərin müzakirə olunması üçün ikitərəfli görüşlərin keçirilməsini ən doğru format hesab edirəm. Ermənistan 30 ildə ərazilərimizi işğal altında saxlaıb. O cümlədən, sərhədləri öz xeyrinə dəyişib. Ona görə də bir gündə danışıqlar aparıb sərhədləri yerinə qaytarmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycanla Ermənistan arasında şərti sərhəddə görüşlərin keçirilməsini çox əhəmiyyətli hesab edirəm.

***-Məlum olduğu kimi, Azərbaycanın 8 kəndi hələ də Ermənistanın işğalı altındadır. 8 kəndin geri qaytarılması nə zaman ola bilər?***

-8 kəndin qaytarılması sülh müqaviləsi imzalanandan sonra da baş tuta bilər. Bu məsələ danışıqların əsas mövzularından biridir. Azərbaycan öz ərazilərindən bir qarışını belə Ermənistana güzəştə getmək niyyətində deyil. Ona görə də Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmi sənədlə təsdiq etməli və anklavların qaytarılması məsələsini həll etməlidir. Delimitasiya və demarkasiya prosesində sərhəd xətti müəyyənləşəcək. Anklavların taleyi isə milli maraqlarımıza uyğun öz həllini tapmalıdır. O cümlədən bu həll variantı Ermənistan tərəfindən də qəbul olunmalıdır.

***Anar Kəlbiyev***

# Dərman bazarında "məmur barmağı"

## Qiymətlərin ucuzlaşmasına kimlər və necə mane olurlar?

***Bu ilin sentyabrında Tarif (qiymət) Şurası həmin vaxtadək təsdiqlənmiş bütün dərman vasitələrinin topdan və pərakəndə satış qiymətlərinin yuxarı hədd olaraq tətbiq edilməsi barədə qərar qəbul etmişdi.Həmin qərar qəbul olunanadək dərman vasitələri üçün vahid qiymət tətbiq olunurdu və bütün apteklərdə dərman vasitələri həmin vahid qiymətə satılırdı.***



Qərarla həmin vahid qiymətlər yuxarı hədd olaraq təsdiqlənmişdi, yəni dərmanlar təsdiq olunmuş qiymətlərdən aşağı qiymətə satıla bilərdi.Bildirilirdi ki, qəbul edilmiş qərar dərman vasitələrinə əlçatanlığın yaxşılaşdırılmasına, bu sahədə daha əlverişli rəqabət mühitinin yaradılmasına və əhali tərəfindən dərman vasitələrinin tənzimlənmiş qiymətlərdən aşağı qiymətə alınmasına imkan verəcək.Məlum qərarın ardından yerli KİV-ə açıqlamasında Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli demişdi ki, hazırda dərman vasitələrinin qiymətləri olduqca yüksəkdir: "Ancaq bundan sonrakı dövrdə Tarif Şurasının qərarı ilə dərmanları təsdiq olunmuş qiymətlərdən aşağı almaq mümkün olacaq. Bu qərar qəbul olunana qədər dərman vasitələri üçün vahid qiymət tətbiq olunurdu və bütün apteklərdə dərman vasitələri həmin vahid qiymətə satılırdı. Məsələn, hər hansı bir dərman vasitəsinin qiyməti 10 manat olaraq təsdiqlənərdisə, bu, vahid qiymət hesab olunurdu və bütün apteklərdə 20 manata satılmalı idi. Yeni qərardan sonra isə təsdiq olunmuş satış qiymətləri yuxarı hədd hesab olunur. Yəni, artıq 10 manat həmin dərman vasitəsinin maksimal qiyməti sayılır və aptekdə onu 20 manatdan aşağı qiymətə almaq olar. Hesab edirəm ki, bu qərar dərman vasitələrinə əlçatanlığın yaxşılaşdırılmasına, bu sahədə daha əlverişli rəqabət mühitinin yaradılmasına və əhali tərəfindən dərman vasitələrinin tənzimlənmiş qiymətlərdən aşağı alınmasına imkan verəcək".

Səhiyyə komitəsinin üzvü qeyd edib ki, bu qərarla həm də əczaçılıq şirkətləri ölkə ərazisində qeydiyyata alınmış dərman preparatlarını rahatlıqla sata biləcəklər: "Ölkəyə daxil olmuş dərman preparatlarının satışı ilə məşğul olan şirkətlər bir-biri ilə rəqabət aparacaqlar. Nəticədə isə daha ucuz və qeydiyyatdan keçmiş, dövlətin keyfiyyətinə nəzarət etdiyi dərmanların idxalı stimullaşacaq. Bu isə nəticədə əhalinin daha ucuz və keyfiyyətli dərman preparatına əlçatanlığını təmin edəcək".

Bu və buna bənzər optimist açıqlamalarla digər millət vəkilləri, müxtəlif ekspertlər də çıxış etmişdilər. Lakin aradan keçən 2 aydan çox müddətdə biz dərmanların qiymətində ciddi ucuzlaşma müşahidə etmirik. Yeni Tarif (qiymət) Şurasının haqqında danışılan qərarı hələ ki, dərman vasitələrinin vətəndaşlar üçün əlçatan olması baxımından arzulanan nəticələr doğurmayıb. Ümid edək ki, qarşıdakı aylarda biz bunu müşahidə etməyə başlayacağıq. Ancaq məsələ ümid etməklə də bitmir. İllərdir ölkə mediası Azərbaycanın dərman bazarında payı olan bir sıra sahibkarların arxasında hansısa məmurların dayanmasından yazır. İddia edilir ki, onlar belə sahibkarları ya birbaşa, ya da dolayı yollarla himayə edirlər. Elə həmin məmurların da dərman vasitələrinin ucuzlaşmasında maraqlı olmadıqları deyilir. Dərman biznesi ilə məşğul olanlar da məhz bəzi vəzifəli şəxslərin himayəçiliyinə arxalanaraq qiymətlərin ucuzlaşmamasında israrlı görünürlər.

Xatırladaq ki, bir müddət öncə Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov açıqlamasında dərman bazarında kartel sövdələşmələrin olduğunu söyləmişdi: "Bazar bir neçə şirkətin əlindədir. Ona görə də dərman qıtlığı çox zaman süni şəkildə yaradılır. Çünki qıtlıq bahalığa yol açır. Üstəlik, inhisarçılar yerli dərman istehsalını da boğurlar. Azərbaycanda dərman istehsalı üçün ideal şərait var. Hətta dövlət Pirallahıda Sənaye Parkı da yaradıb. Çox təəssüf ki, dərman biznesi ilə məşğul olan bəzi məmurlar yerli istehsalda maraqlı deyillər. Ona görə də Sənaye Parkı 10 ilə yaxın müddətdə fəaliyyət göstərsə də, cəmi bir istehsalçı var. Yerli istehsal olmadığı üçün biz hər gün dərman qıtlığı və qiymət artımı ilə üzləşəcəyik".

Qeyd edək ki, başqa ekspertlər də oxşar fikirdədirlər. Belədə isə bütün nikbin gözləntilər bir qədər kölgədə qalır, çünki ölkənin dərman bazarında inhisarçı mənafelər, o cümlədən, müəyyən məmurların bu bazardakı maraqları tamamilə aradan qaldırılmadan ciddi ucuzlaşma ehtimalı zəif görünür.

***Toğrul Əliyev***



# "İkili standartlardan əl çəkin" - Ombudsman

***"Bu gün dünyanın tərəqqipərvər ölkələri və beynəlxalq təşkilatlar hər kəsin yaşamaq, azadlıq və sərbəst hərəkət etmək, mülkiyyət, təhlükəsiz yaşamaq, sağlam ətraf mühitdə yaşamaq, sağlamlığın qorunması kimi fundamental insan hüquqlarının müdafiəsi naminə ikili standartlardan əl çəkməli və Azərbaycana münasibətdə ədalətli mövqe nümayiş etdirməlidirlər".***

Bunu Azərbaycanın İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Bakıda Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə həsr olunan "İnsan Hüquqları - 75 Bakı Konfransı: Qlobal və milli çağırışların həlli üçün universallığın və bölünməzliyin təşviq edilməsi" mövzusunda keçirilən beynəlxalq konfransda deyib.

Onun sözlərinə görə, BMT-nin Baş Assambleyasının 1948-ci ilin 10 dekabr tarixli qətnaməsinə əsasən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsi ilə əlaqədar hər il bu tarix bütün dünya dövlətləri tərəfindən Beynəlxalq İnsan Hüquqları Günü kimi qeyd edilir: "Dünyada baş verən qlobal dəyişikliklər və obyektiv tarixi zərurət səbəbindən qəbul edilmiş və artıq bir neçə gündən sonra 75 illik yubileyi olacaq həmin məşhur sənədin əsas prinsipləri olan ayrı-seçkiliyin yolverilməzliyi, hüquq bərabərliyinin təmini məsələləri, habelə digər müddəalar bir çox dövlətlərin Konstitusiyasında və beynəlxalq müqavilələrdə öz əksini tapıb".

Ombudsman qeyd edib ki, ötən bu uzun illər ərzində insan hüquqlarının təşviqi və müdafiəsi sahəsində əsas baza rolunu oynayan Ümumdünya İnsan Hüquqları Bəyannaməsi dünyamızı əsaslı şəkildə dəyişməyə kömək edib: "Bu sənəddə ilk dəfə olaraq hər bir insanın bərabərlik və ləyaqət hüququ, hər kəsin doğulduğu andan toxunulmaz, ayrılmaz hüquq və azadlıqlara malik olduğu bəyan edilib".

# Komitə sədri Qərbə çağırış etdi

## Zahid Oruc: "Hüquqları pozulan minlərlə azərbaycanlının səsini eşitmisinizmi?"

***"Biz Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75-ci ildönümünü qeyd edən bütün dövlətlərdən soruşuruq ki, Azərbaycanın hüquqları pozulan minlərlə insanının səsini eşitmisinizmi?"***

Bunu Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc Bakıda Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə həsr olunan "İnsan Hüquqları - 75 Bakı Konfransı: Qlobal və milli çağırışların həlli üçün universallığın və bölünməzliyin təşviq edilməsi" mövzusunda keçirilən beynəlxalq konfransda deyib.

Onun sözlərinə görə, Vətən müharibəsi Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75 illiyinə ən böyük töhfədir: "Suveren ölkədə insanların dinc və təhlükəsiz şəkildə yaşaması dövlət tərəfindən təmin edilir. XXI əsrdə insan hüquqları yalnız hüquq və insan məsələsi deyil. 1948-ci ili, yəni deklarasiyanın qəbul edilməsini unutmaq olmaz. Son 75 ildə dünya siyasi xəritəsi köklü dəyişikliyə uğrayıb. İndi dünya birliyi bəyannamənin ildönümündə onun yaranma səbəbini unudur. Bu gün Avropanın bir hissəsində Rusiya-Ukrayna müharibəsi, eləcə də Yaxın Şərqdəki müharibələr bəyannamənin əsas şərtlərinin görməzdən gəlindiyini göstərir. Qərbin öz dəyərlərini necə ayaq altına ataraq sömürgənlik etdiyini hamı görür. Biz Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 75-ci ildönümünü qeyd edən bütün dövlətlərdən soruşuruq ki, Azərbaycanın hüquqları pozulan minlərlə insanının səsini eşitmisinizmi? Əgər eşitmisinizsə, haradadır dəstək bəyanatlarınız? Bəlkə, köçkünlərin qayıdış hüququ 907-ci məsələdir?! "Human Rights Watch" mina terrorundan xəbəri olmadığını deyir, elədirsə, Azərbaycanla bağlı cədvəli necə qəbul edirlər? Qələbəmiz istənilən beynəlxalq indeksdən yuxarıda dayanır".



# QAİ bəyanat verdi

***"Fransanın ardınca Avropa İttifaqının Ermənistanı silahlandırması olduqca yanlış və təhlükəli addımdır".***

"Unikal" xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında qeyd edilib.

Bildirilib ki, Avropa İttifaqının (Aİ) "Avropa Sülh Fondu" çərçivəsində Ermənistana hərbi yardım göstərəcəyi barədə məlumatlar yayılıb.

"Avropa Sülh Fondu" adı altında Ermənistana silah verilməsi kinayə və istehza doğurur. Qərbi Azərbaycan İcması hesab edir ki, Fransanın ardınca Avropa İttifaqının Ermənistanı silahlandırması olduqca yanlış və təhlükəli addımdır və regionda gərginliyin artmasına, Ermənistanda revanşizmin güclənməsinə xidmət edir. Avropa İttifaqı Ermənistanın silahlandırılması, Cənubi Qafqaz regionuna geosiyasi rəqabətin gətirilməsi siyasətinə son qoymalıdır", - bəyanatda vurğulanıb.

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 9



# “Tərtər işi” ilə bağlı ittiham olunan generalın məhkəməsi təxirə salındı



***“Tərtər işi” ilə bağlı ittiham olunan general-mayor Bəkir Orucov, İntiqam Məmmədov, Rahib Məmmədov, Ziya Kazımov və Ülvi Rəşidovun məhkəmə prosesi keçirilib.***

Sumqayıt Məhkəmə Kompleksində Bakı Hərbi Məhkəməsinin hakimi Zeynal Ağayevin sədrliyi ilə keçirilən iclasda bu gün hökm elan olunacağı gözlənilsə də, proses təxirə salınıb.

Buna səbəb kimi təqsirləndirilənlərdən biri Ziya Kazımovun məhkəməyə gəlməməsi göstərilib. Ev dustaqlığında olan mayor Ziya Kazımovun xəstə olduğu, prosesə gələ bilmədiyi bildirilib.

Prokuror Vüsal Mehrəliyev Ziya Kazımovun növbəti iclasa məcburi gətirilməsini istəyib. Hakim Zeynal Ağayev isə təqsirləndirilən şəxsin müalicə aldığı tibb mərkəzinə sorğu göndəriləcəyini, iclasda iştirak etməmə səbəbi barədə həkim rəyinə əsasən, məcburi gətiriləcəyini bildirib.

Proses qeyri-müəyyən vaxta təxirə salınıb.

Xatırladaq ki, prokuror Bəkir Orucovun və Ziya Kazımovun 12 il 6 ay, İntiqam Məmmədovla Ülvi Rəşidovun 10 il 6 ay, Rahib Məmmədovun isə 8 il 6 ay azadlıqdan məhrum edilməsini istəyib.

Qeyd edək ki, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi vəzifəsini icra edən Bəkir Orucov və digərləri ötən il cinayət məsuliyyətinə cəlb ediliblər.

Onlara qarşı Cinayət Məcəlləsinin 126.3 (qəsdən sağlamlığa ağır zərər vurma, ölümə səbəb olduqda), 145.3 (qanunsuz azadlıqdan məhrum etmə, ölümə səbəb olduqda), 293.2 (dövlət orqanının vəzifəli şəxsi tərəfindən işgəncə vermə), 329 (tabelikdə olan hərbi qulluqçuya qarşı zorakı hərəkətlər), 341.2.1 və 341.2.3 (bir qrup şəxs tərəfindən vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və ya vəzifə səlahiyyətlərini aşma bir qrup şəxs tərəfindən ağır nəticələrə səbəb olduqda) maddələri İntiqam Məmmədova isə əlavə olaraq 178-ci (dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb.

B.Orucov və R.Məmmədov barəsində həbs, Ziya Kazımov və Ülvi Rəşidov barəsində istintaq dövründə alternativ qətimkan tədbiri seçilib.

# TƏBİB qızılcadan öldüyü deyilən şagirdlə bağlı məlumat yaydı

***Bakı şəhəri, Qaradağ rayonunda 2014-cü il təvəllüdlü uşaq ölüb.***

TƏBİB-dən verilən məlumata görə, Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə Bakı şəhəri, Qaradağ rayonu, Qobustan qəsəbəsi, 61-ci km ünvanından 30.11.2023-cü il tarixində 04:26 radələrində çağırış daxil olub.

Qeyd olunub ki, təcili və təxirəsalınmaz tibbi yardım briqadaları tərəfindən ünvanda 2014-cü il təvəllüdlü (kişi cinsli) şəxsin həkiməqədər ölümü qeydə alınıb: ”Şəxsin ölüm səbəbini tibbi ekspertiza, patoloji anatomik müayinə və təşrihdən sonra müəyyənləşdirmək mümkündür”.

Xatırladaq ki, Qaradağ rayonunda yerləşən 195 saylı orta məktəbin direktoru Laçın Hüseynli təhsil müəssisəsinin 4-cü sinif şagirdi, 10 yaşlı Rinatın qızılca xəstəliyindən dünyasını dəyişdiyini deyib.

# Bu şirkətdə qanunsuzluq aşkarlandı

***Vətəndaşların əmək hüquqlarının pozulmasına dair daxil olmuş müraciətlər üzrə Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırmalar aparılıb.***

”Unikal” xəbər verir ki, araşdırmalar zamanı “Xəzinə” hazırlıq kurslarının vəzifəli şəxsi tərəfindən əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən 10 nəfərdən artıq şəxsin işə cəlb edilməsi, “ABB Limited” Şirkətinin nümayəndəliyinin vəzifəli şəxsləri tərəfindən isə işçilərin əmək haqqının azaldılması məqsədilə iş saatlarının faktiki olduğundan daha az göstərilərək rəsmi sənədə bilə-bilə yalan məlumat daxil edilməsinə əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilən faktlar üzrə Cinayət təqibindən kənar icraatlar idarəsində Cinayət Məcəlləsinin 162-1 (əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işləri başlanaraq istintaq olunması üçün aidiyyəti üzrə müvafiq rayon prokurorluqlarına göndərilib.

# İcra başçılarının havaya sovurduğu on milyonlarla manatın yaratdığı acı mənzərə

## Həftənin sualı: regionların sosial-iqtisadi inkişafına yatırılmış 104 milyard manatlıq investisiyalara rəğmən rayonlardan Bakıya köçün sirri nədir?

***“Son 20 ildə regionların sosial-iqtisadi inkişafına həsr olunmuş dörd dövlət proqramı qəbul olunub və bu proqramlar üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir”. Bu barədə oktyabrda iqtisadiyyat naziri Mikayıl Cabbarov açıqlama verişdi.***

Nazir demişdi ki, 2022-ci ildə regionlar üzrə məhsul buraxılışının nominal həcmi 2003-cü ilə nisbətən 13,5 dəfə böyüyüb: “2004-cü ildən bəri bölgələrdə 1,8 milyondan çox yeni iş yeri və 52 mindən çox yeni müəssisə yaradılıb. Regionlarda 8 hava limanı tikilib və ya yenidən qurulub, Laçın hava limanının tikintisi davam edir. 17 min km-dən çox avtomobil yolu, 500-dən



çox körpü və tunel, 3300-dək məktəb, 450-dən çox uşaq bağçası, 550-dən çox tibb müəssisəsi, 41 olimpiya idman kompleksi tikilib və ya təmir olunub”.

Bu ilin əvvəllərində Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyinin məlumatında vurğulanırdı ki, ölkə ərazisinin 2,5%-ni təşkil edən paytaxt Bakı əhalinin 25%-dən çoxunu özündə cəmləşdirib. Sitat: ”Qeyri-rəsmi məlumatlara görə isə bu gün Bakıda təqribən 3 milyondan çox insan daimi yaşayır. Hər gün regionlardan 500 mindən çox insan paytaxta qısamüddətli girişçıxış edir. Paytaxtın avtomobil yollarında sutka ərzində 1 milyona yaxın nəqliyyat vasitəsi hərəkətdə olur. Son 30 ildə qeyri-təbii urbanizasiya paytaxtda və bütövlükdə ölkədə ciddi problemlərə səbəb olub. Kəndlərdə əhalinin sayı sürətlə azalıb. Bu da bölgələrdə iqtisadi inkişafa, kənd təsərrüfatı məhsullarının istehsalına mənfi təsir göstərib. Paytaxtın həddən artıq “yüklənməsi” ekoloji vəziyyətin pisləşməsi, çirklənmə, tıxaclar və s. kimi ciddi problemlərin yaranmasına səbəb olub. Tənzimlənməyən miqrasiya Bakının və ətraf qəsəbələrin görünüşünə də təsirsiz ötüşməyib. Eyni zamanda kommunal təchizatda ciddi yüklənmələr müşahidə olunur. Qeydiyyatsız yaşama paytaxtda ictimai sabitlik baxımından da problemlər yaradır. Belə ki, hər il Bakıda baş verən cinayət hadisələrinin təqribən 35 faizi digər şəhər və rayonlarda qeydiyyatda olan və Bakıda yaşayan insanlar tərəfindən törədilir”.

Beləliklə, son 20 ildə regionların sosial-iqtisadi inkişafına yatırılmış 104 milyard manat fonunda ortaya maraqlı suallar çıxır. Məsələn, niyə insanlar öz doğma yurd-yuvalarında deyil, Bakıda yaşamağa üstünlük verirlər? Bölgələrdən paytaxt və ətrafına axının səbəbi nədir? Niyə rayonlarda yaşayanlar iş üçün Bakıya üz tuturlar? Axı elə həmi axın səbəbindən hazırda Bakıda insan sıxlığı və hərəkət məhdudiyyəti yaşanır.

Əslində hər kəsə aydındır ki, əyalətlərdə zavod və fabriklərin, istehsalat müəssisələrinin az olması, əlverişli biznes mühitinin yoxluğu paytaxta kütləvi axını şərtləndirən başlıca amildir. O da aydın həqiqətdir ki, uzun illər boyunca bölgələrə büdcədən ayrılan vəsaitlər heç də tamamilə effektiv, təyinatı üzrə xərclənməyib, bir çox hallarda korrupsiya predmetinə çevrilib.

2019-cu ildən etibarən Azərbaycanda çox sayda rayon və şəhərin icra başçısı keçirilən xüsusi anti-korrupsiya əməliyyatları nəticəsində saxlanıldı, onlar hələ də dəmir barmaqlıqlar ardındadırlar. Hüquq-mühafizə orqanlarının apardığı araşdırmalar təsdiqlədi ki, bir sıra rayon rəhbərləri tamamilə yeyintiyə qurşanıblar, büdcə vəsaitlərini müxtəlif yollarla talan ediblər, özlərinə dəbdəbəli həyat tərzi qurublar, əhalinin sosial-iqtisadi problemlərinin həllinə isə laqeyd yanaşıblar.

Belə bir acı reallıqda əyalətlərdən paytaxta kütləvi axın təəccüb doğura bilərmi?!

Elə ekspertlərin müxtəlif vaxtlarda mətbuata açıqlamaları da dediklərimizi təsdiqləyir. Məsələn, iqtisadçı, millət vəkili Vüqar Bayramov bir neçə ay öncə bildirmişdi ki, ixtisaslı kadrların regionlarda işlə təminatına üstünlük verilsə, bu, insanların şəhərə axınını azaldacaq: ”Bakıya axının əsas səbəblərindən biri rayonlarda iş yerlərinin azlığıdır. Rayonlarda əməkhaqqı Bakıya nisbətdə iki dəfə azdır. Bu da öz növbəsində urbanizasiya prosesinin sürətlənməsinə gətirib çıxarır. Digər ərazilərlə müqayisədə paytaxtda yaşayış xərcləri daha yüksəkdir. Bu səbəbdən də insanların, xüsusən də gənc kadrların bölgələrdə işlə təminatına üstünlük verilməlidir. Urbanizasiya təkcə şəhər əhalisinin artması deyil. Bu, həm də şəhərlərin çəkisinin, sayının, istehsalın artmasıdır. Hesab edirəm ki, urbanizasiyanın səngiməsi üçün bölgələrlə paytaxt arasında imkanların yaxınlaşdırılmasına ehtiyac var”.

İqtisadçı deputatın söylədikləri ilə razılaşmamaq mümkünsüzdür. Lakin onu da vurğulamaq lazımdır ki, əyalətlərdə ilk növbədə yerli rəhbərliyin şəffaf fəaliyyətinə ehtiyac var. Müəyyən icra başçıları korrupsiya ilə aralarına məsafə qoymadığı müddətcə Azərbaycanda şəhərdən kəndə, paytaxt və ətrafından bölgələrə qayıdışı təmin etmək real görünmür. Dövlətin regionlarda sosial-iqtisadi inkişafın təmin olunmasına hesablanmış addımlarını yeyinti əməlləri ilə faktiki olaraq sabotaj edən məmurlar iş başında qaldığı, vətəndaşlara iş yerləri açmaq, sahibkarlıq fəaliyyəti üçün imkanlar yaratmaq əvəzinə öz cibini güdən şəxslər vəzifədə oturduğu müddətdə belə bir qayıdışı gerçəkləşdirmək müşkül məsələdir...

***Sənan Mirzə***

# Tikinti oliqarxlarının ağlasığmaz oyunu

## Sahəsi az olan mənzillərə görə necə çox pul qopardılır? - İlginc təfərrüatlar...

***Azərbaycanda yeni inşa olunan "göydələnlər" ətrafında polemikalar səngimir. Son vaxtlar belə binalarla bağlı daha bir müzakirə predmeti yaranıb. Söhbət "göydələnlərin" tikintisi ilə məşğul olan şirkətlərin vətəndaşları az sahə üçün faktiki olaraq çox ödəniş etmək məcburiyyətində qoymasından gedir. Bir çox hallarda yeni tikilən çoxmənzilli binalarda mənzillərin alınması zamanı mənzilin ümumi sahəsinin qanunvericiliyə uyğun olaraq hesablanan sahədən daha artıq olması müşahidə olunur. Tikinti şirkəti üçün bu maddi baxımdan "sərfəli" olsa da, mövcud durum qanunvericiliyin pozulmasına və nəticə etibarı ilə vətəndaşın aldadılmasına gətirib çıxarır.***



Bir az da dəqiqləşdirək: Bakıda son 20 ildə xeyli çoxmərtəbəli yaşayış binaları tikilib. Həmin binaların da çoxu Mənzil-Tikinti Kooperativləri (MTK) tərəfindən tikilərək sakinlərin istifadəsinə verilir. Ancaq bina istifadəyə verildikdən sonra sakinlərin əsas narazılığı kommunal haqların yığılması və onun məbləği ilə bağlı olur. Mənzil alan şəxs İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətindən mənzil üzərində mülkiyyət hüququnu təsdiq edən dövlət reyestrindən çıxarış aldıqda mənzilin qanunauyğun hesablanmış sahəsi ilə tanış olur və çıxarışda (kupça) mənzilin ümumi sahəsinin tikinti şirkətinin təqdim etdiyi sənəddə göstəriləndən az olduğunu görür.

Qısası, çoxmənzilli binalarda yaşayan sakinlərin bildirdiyinə görə mənzilin sahəsi dövlət çıxarışında az göstərilsə də, kommunal xidmətlərə görə MTK-ya daha çox kvadratmetr üçün ödəniş edirlər.

Yola salmaq üzrə olduğumuz həftə məsələ ilə bağlı Trend-ə açıqlamasında əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev təsdiqləyib ki, MTK-lar mənzil satanda kvadratını daha böyük göstərirlər: Sitat: "Mənzilin iç, çöl, arakəsmə divarları, havalandırma xətləri və bəzi yerləri evin sahəsi kimi hesablanır. Amma Şəhərsalma və Tikinti Məcəlləsində belə bir maddə var ki, mənzillər satılarkən iç və çöl divarlar, məhəccərlər, havalandırma xətləri evin sahəsinə salınmamalıdır. Bu səbəbdən də dövlət çıxarışı veriləndə bu sahələr görtərilmir. Çıxarışda MTK-nın satdığı mənzilin kvadratı az göstərilir.

Vətəndaş mənzilinə çıxarış alarkən mütləq şəkildə çıxarışın surətini tikinti şirkətinə təqdim etməlidir və müqavilənin yenilənməsini tələb etməlidir. Bundan sonra ödənilən kommunal ödəniş aşağı salına bilər. Əgər MTK-lar vətəndaşdan pul yığırsa, onlar arasında xidməti müqavilə imzalanmalıdır".

Bu həftə o da məlum olub ki, mənzilin sahəsi dövlət çıxarışında 75.2 kvadratmetr göstərildiyi halda, vətəndaş MTK-lara kommunal xidmətlər üçün 87 kvadratmetr sahənin ödənişini edir. Belə ki, Xezerxeber.az-ın məlumatına görə, bəzi MTK-lar alqı-satqı zamanı kommunal ödənişlərin məbləğini özləri təyin etdikləri kvadratmetrə əsasən müəyyənləşdirirlər. Əksər hallarda mənzilə çıxarış alarkən onun sahəsi MTK ilə imzalanan müqavilədə göstərilən kvadratmetrdən az olur.

Xidməthəqqı köhnə müqaviləyə əsasən hesablandığına görə vətəndaşlar MTK-ya daha çox ödəniş etməli olurlar.

Məsələ ilə bağlı başqa bir əmlak eksperti Ramil Osmanlı isə bildirib ki, mülki qanunvericiliyə əsasən, mənzilin əsas sənədi dövlət çıxarışı hesab olunur və ödənişlər də orada göstərilən sahəyə görə həyata keçirilməlidir.

Yalnız dövlət çıxarışı olmadığı halda, xidmətħaqqı MTK-nın vətəndaşla bağladığı müqavilə əsasında hesablana bilər.

Vətəndaşların sözlərinə görə, MTK-lar müəyyən xərclərini qarşılamaq üçün bu üsulla əlavə gəlir əldə etməyə çalışırlar.

Ekspert qeyd edib ki, MTK-lar əlavə gəlir əldə etmək üçün vətəndaşların məlumatsızlığından istifadə edirlər. Əslində çıxarış alan mənzil sahibləri MTK-ya yaxınlaşaraq müqavilənin yenilənməsini tələb edə bilərlər.

O, əlavə edib ki, qanunsuzluğa yol verən MTK-lara qarşı ciddi tədbirlər görülmədiyindən bu sahədə sui-istifadə halları dəfələrlə artıb.

Bəs bütün bu mənzərənin yaranma səbəbi nədir? İş orasındadır ki, Azərbaycanda "göydələnlərin" inşası ilə məşğul olan şirkətlərin çoxu məmurların ya birbaşa nəzarətində, ya da dolayı yolla himayəsindədir. Elə ona görə də "tikinti oliqarxları" özlərini əksər hallarda "toxunulmaz" sayırlar. Nəticədə müvafiq qanunvericiliyin tələblərini pozmaqdan çəkinmirlər. Hesab edirlər ki, kimsə onlara "gözün üstə qaşın var" deyə bimeyəcək.

Beləcə, ortaya anormal vəziyyət çıxır: MTK-lar göz-görəti şəkildə vətəndaşların hüquqlarını tapdayır, hətta bu cür addımlarına haqq qazandırmaq üçün qanunvericiliklə daban-dabana zidd bəhanələr uydururlar.

"Unikal"ın araşdırmasına görə, çoxmənzilli binalarda mənzillərin sahəsinin hesablanması Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasının 04 dekabr 2012-ci il tarixli 07 nömrəli qərarı ilə təsdiq edilmiş "Tikinti obyektlərinin sahəsinin və həcminin hesablanması" qaydalarına uyğun olaraq aparılmalıdır. Müvafiq qaydalara əsasən mənzillərin ümumi sahəsi - yaşayış otaqların, köməkçi otaqların (sanitar qovşağı, mətbəx, dəhliz, yığnaq yeri) sahələrinin, eləcə də balkon, lociya, terras, şüşəbənd və eyvanların azaltma əmsallara vurulmuş sahələrinin məcmusundan ibarətdir.

Qaydaların 3.2-ci bəndinə əsasən yaşayış binasında otaqların və digər yerləşgələrin sahələri divar və arakəsmələrin tamamlanmış səthləri arasında döşəmə səviyyəsində (plintuslar hesaba alınmadan) ölçülməklə təyin edilir. Yəni, otaqların sahəsi daxili divarın üst səthindən qarşıdakı daxili divarın üst səthinə qədər ölçülməklə hesablanmalı, yan və mənzilin daxilindəki arakəsmə divarların tutduğu sahə nəzərə alınmamalı və ümumi sahəyə əlavə edilməməlidir.

Binanın isidilmə sisteminə daxil olan sobanın (buxarının) və havalandırma üçün nəzərdə tutulmuş şaquli boşluqların yerləşdiyi sahə otağın və digər yerləşgələrin sahələrinə daxil edilmir.

Qaydaların 3.8-ci bəndinə əsasən balkon və terrasların sahələri, şüşəbənd və lociyalar, eyvanlar (verandalar) hesablanarkən müvafiq olaraq azaltma əmsalları tətbiq edilir. Belə ki, balkon və terrasların sahələri - 0,3; şüşəbənd və lociyalar - 0,5 azalma əmsallarına vurulmaqla mənzilin ümumi sahəsinə daxil edilir. Eyvanların (verandaların) sahələri azaldılmadan mənzilin ümumi sahəsinə daxil edilir. Bəzi hallarda vətəndaşlar arasında balkon və eyvanın fərqi ilə bağlı anlaşılmazlıq yaranır. Məlumat üçün bildirək ki, balkon-fasadın divar səthindən çıxan və məhəccərlə hüdudlanmış meydança, eyvan- binaya bitişik və ya onun içərisində tikilmiş, isidilməyən, açıq və ya şüşələnmiş yerləşgədir.

Beləliklə balkon və terrasların sahələrinin 30%-i, şüşəbənd və lociyaların 50%-i, eyvanların (verandaların) tam sahəsi mənzilin ümumi sahəsinə əlavə edilməlidir. Nümunə üçün qeyd edək ki, balkonun sahəsi 10 m? olduqda, 0,3 azaltma əmsalı tətbiq edərək balkona dair 3 m? sahə mənzilin ümumi sahəsinə əlavə olunmalıdır.

Əksər tikinti şirkətləri tərəfindən çoxmənzilli binalardakı mənzillərin sahəsi bayır divarların üst səthindən ölçməklə hesablanır. Otaqlar və mənzillər arasındakı ara divarlar da ümumi sahəyə əlavə edilir, eləcə də Qaydalara uyğun olaraq tələb olunan azaltma əmsalları tətbiq edilmir.

Mənzil sahibi olmaq istəyən vətəndaşlar seçdikləri mənzilin ümumi sahəsinin qaydalara uyğun hesablandığına əmin olduqdan sonra müqaviləni imzalamalı və ödənişi həyata keçirməlidirlər.

Ümumi sahə üzrə çıxarış (kupça) və müqavilədəki fərqi görən mənzil sahibi bununla bağlı tikinti şirkətinə müraciət edərək ödədiyi artıq pulu tələb edə bilər. Əgər tikinti şirkəti qanunazidd formada hesabladığı sahə üzrə ödənişi geri qaytarmasa, mənzil sahibi pozulmuş hüququ ilə bağlı məhkəməyə müraciət edə bilər. Bu məqamda isə əsas odur ki, "tikinti oliqarxları" əllərindəki imkanlardan faydalanıb vətəndaşların haqlı müraciətləri barədə öz maraqlarına uyğun qərarların çıxarılmasına nail olmasınlar...

***Sənan Mirzə***



## Şahmar Mövsümov gənclərin xaricdə təhsil almasından danışdı

***"Ötən illə müqayisədə bu il startapların sayı 3 dəfə artıb".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib.

Onun sözlərinə görə, hökumətlər sənaye, elmi dairələr və startaplar arasında əlaqələrin gücləndirilməsi istiqamətdə işlər görməlidirlər.

"Xalqımızın innovasiyaların öncüllüyündə böyük tarixçəsi var. Azərbaycan öz unikal mədəni tarixini qorumaqla innovasiyaların mənimsənilməsi istiqamətində öz səylərini göstərir. Texnoloji parkların yaradılması, əlverişli biznesin yaradılması sahəsində bütün sektorlarda innovasiyalara nail olmuşuq, BMT-nin 2030 Dayanıqlı İnkişaf Məqsədləri üçün kompleks tədbirlər nəzərdə tutulur. Milli prioritetlərimizdən biri də təmiz mühit və yaşıl artım ölkəsinin yaradılmasıdır. Hər bir xalqın rifahı üçün təhsilin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq hökumət tərəfindən gənclərin dünyanın ali təhsil müəssisələrində təhsil alması üçün əlverişli mühit yaradılıb. Gənclərin İKT sahəsində bacarıqlarının inkişafı üçün təqaüdlər verilir", - deyə Ş.Mövsümov qeyd edib.

## "Şəhərlərimizin rəqəmsal əkizlərinin yaradılması planlaşdırılır" - Elnur Əliyev

***"Bizim əsas fokusumuz rəqəmsal həllərə dayanan yeni bizneslərin yaradılmasıdır".***



Bu fikirləri iqtisadiyyat nazirinin müavini Elnur Əliyev bu gün Bakıda keçirilən "Inmerge" İnnovasiya Sammitində deyib.

Nazir müavini qeyd edib ki, ölkədə rəqəmsal savadlılığın artırılmasına nail olmuşuq:

"İnnovasiyalar sahəsinə yeni yatırımlar qoymağı planlaşdırırıq. Şəhərlərimizin rəqəmsal əkizlərinin yaradılması planlaşdırılır. Dördüncü sənaye inkişafına dair forumun ölkəmizdə keçirilməsinə nail olaq. Bundan əlavə süni intellektin imkanlarından istifadə edərək investisiya qoyuluşunu daha effektli etməyə çalışırıq. Gələcəkdə Rəqəmsal Bacarıqlar Mərkəzinin yaradılmasını planlayırıq".

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 11





# Abşeron rayonunun bu ilin 9 ayının “Sosial-iqtisadi inkişafı” statistikası

***Ulu öndərimizdən miras qalan və bu gün dünya ölkələri arasında Azərbaycanın simasına çevrilən iqtisadi, siyasi inkişaf və tərəqqi kursu ölkə başçısı tərəfindən uğurla davam etdirilmiş, bunun nəticəsində ölkədə qeyri-neft sektorunun inkişafı yolu ilə regionların tarazlı və davamlı inkişafının sürətləndirilməsi, əhalinin sosial rifahının daha da yaxşılaşdırılması, yoxsulluğun azaldılması, yeni iş yerlərinin açılması və s. bu kimi iqtisadi nailiyyətlər əldə olunmuşdur***

İqtisadiyyatımızın inkişafında əhəmiyyətli inkişaf potensialına malik olan Abşeron rayonunda fəaliyyət göstərən sənaye müəssisələri tərəfindən doqquz ay ərzində 588.9 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Sənayenin inkişafında qeyri-dövlət sektorunun fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Qeyri-dövlət subyektləri tərəfindən hesabat dövrü ərzində 518.6 milyon manatlıq məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da ümumi məhsulun 88,1 faizi qədərdir.

Rayonun sosial-iqtisadi infrastruktur sahələrindən biri olan nəqliyyat sektoru da cəmiyyətin inkişafında mühüm rol oynayır. Dövr ərzində fiziki şəxslər tərəfindən yük və sərnişin daşınmasından əldə olunan gəlir 29.0 milyon manat olmuşdur.

Hesabatların təhlilindən məlum olur ki, rayonun iqtisadi inkişafında rabitə və informasiya sahəsinin də əhəmiyyətli yeri var. Belə ki, hesabat dövründə müəssisə və təşkilatlara, həmçinin əhaliyə 18.6 milyon manatlıq və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 15,2 faiz çox rabitə xidməti göstərilmişdir. Əldə olunan gəlirin 45,0 faizi dövlət, 55,0 faizi isə qeyri-dövlət sektorunun payına düşür.

İlin yanvar-sentyabr aylarında rayonda 211.8 milyon manatlıq investisiya qoyuluşu olmuşdur ki, bu investisiyanın 198.6 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir.

İlin doqquz ayı ərzində əhaliyə pərakəndə ticarət və iaşə şəbəkələrindən 1065.6 milyon manata bərabər istehlak malları satılmış və iaşə xidmətləri göstərilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 21.2 faiz çoxdur. Əhaliyə göstərilən ödənişli xidmətin dəyəri isə 110.0 milyon manat olmuş, bunun da 54.5 milyon manatı dövlət, 55.5 milyon manatı isə qeyri-dövlət mülkiyyətinə məxsus təşkilatlar tərəfindən əldə edilmişdir.

2023-cü ilin yanvar-sentyabr aylarında 515,0 hektar sahədən 458,3 ton payızlıq və yazlıq dənli və dənli paxlalı (qarğıdalısız) bitkilərin məhsul yığımı olmuşdur. Bundan əlavə 7,0 hektar sahədən 89,6 ton kartof, 683,8 hektar sahədən 172505,5 ton tərəvəz, 115,0 hektar sahədən 1236,2 ton bostan məhsulları yığılmışdır. 2023-ci ilin yanvar-sentyabr aylarında 4861,9 hektar meyvə və giləmeyvə bağlarından 1554,0 ton, 131,5 hektar üzüm sahəsindən 866,0 ton məhsul yığımı aparılmışdır.

Rayonun kənd təsərrüfatı müəssisələrində, əhali və kəndli fermer təsərrüfatlarında cari il oktyabr ayının 1-i vəziyyətinə 20654 baş iribuynuzlu mal qara, o cümlədən 13177 baş inək və camış, 89399 baş isə qoyun və keçi mövcud olmuşdur. Təqdim olunan statistik məlumatlara və müvafiq hesablamalara görə diri çəkidə 8433 ton ət, 31097 ton süd istehsal edilmişdir.

2023-cü il sentyabr ayının 1-i vəziyyətinə rayonda iqtisadiyyatın bütün sahələrini əhatə etməklə işçilərin sayı 41773 nəfər olmuş, bundan 13722 nəfəri dövlət, 28051 nəfəri isə qeyri-dövlət sektorunu əhatə etmişdir. Hesablanmış əməkhaqqı fondu 230018,9 min manat olmuşdur. Rayon üzrə bir işçiyə düşən orta aylıq nominal əməkhaqqı 715,3 manat təşkil etmişdir. Ötən ilin müvafiq dövrü ilə müqayisədə işçilərin sayı 6,8 faiz, orta aylıq nominal əməkhaqqı isə 13,3 faiz artmışdır. Rayonda sosial sahənin inkişafı da yüksək səviyyədə təmin olunur, quruculuq-abadlıq işləri davam etdirilir.

***Təvəkkül Mirzəyev,***
***Abşeron Rayon Statistika İdarəsinin rəisi***

# Alimpaşa Məmmədovun korrupsiya qoxulu qorxusu...

## Sabiq icra başçısı niyə oğlu barədə iddialardan çəkinir?

***Azərbaycanın korrupsiya səbəbilə həbs edilən bir sıra iri məmurları müsadirə olunan əmlaklarının geri qaytarılması üçün apellyasiya şikayətləri ilə çıxış etməsinə baxmayaraq, Şəmkir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Alimpaşa Məmmədov və ailə üzvləri ndiyədək belə bir vəsadət qaldırmayıb.***

Məlumatlı mənbələrdən ”Unikal”a daxil olan məlumata görə, bu səbəbsiz deyil.

Belə ki, A.Məmmədovla bağlı başlanılmış cinayət işi üzrə araşdırmalar zamanı onun ailə üzvləri haqqında da ilginc detallar üzə çıxıb. Belə ki, Şəmkir Rayon İcra Hakimiyyətinin sabiq başçısı vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, Şəmkir rayonu Çinarlı bələdiyyəsi tərəfindən təsis edilmiş, mülkiyyətində 2 milyon 844 min manat dəyərində əmlakı olan “Çinarlı Qəsəbə” MMC-nin bütün paylarını oğlu Adilzadə Adil Alimpaşa oğlu və tabeçiliyində fəaliyyət göstərən digər şəxslərə məxsus “Şəmkir Səbət Ticarət Mərkəzi” MMC-yə cəmi 40 manata satıb.



Bundan başqa, Şəmkir şəhər Bələdiyyəsi tərəfindən təsis edilmiş, mülkiyyətində 967 min manat dəyərində qida məhsulları istehsal zavodu olan “Abad Şəmkir” MMC-nin bütün paylarını da hazırda həbsdə olan sabiq başçının öz oğlu Adil Adilzadənin nəzarətinə keçirdib. Həm də vur-tut 180 manata! Nəticədə, o, xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəməsinə yol açıb.

Məsələ bununla da bitmir. Belə ki, A.Məmmədovun mənimsəmə və rüşvət alma yolu ilə pul vəsaitlərinin əldə edilməsinin həqiqi mənbəyini gizlətmək məqsədi ilə 832 min manat vəsaitin oğlu Adil Adilzadənin adına təsis etdiyi “Az Forel” MMC-nin Şəmkir rayonunda yerləşən balıqyetişdirmə və emalı müəssisəsinin tikintisinə və digər xərclərinə yönəltməklə cinayət yolu ilə əldə etdiyi külli miqdarda pul vəsaitlərini leqallaşdırmasına əsaslı şübhələr müəyyənləşdirilib.

Sonradan yuxarıda sadalanan faktların hamısı təsdiqini tapıb.

Beləliklə, aydınlaşıb ki, Alimpaşa müəllimlə yanaşı, onun oğlu da Şəmkirdə baş verən genişmiqyaslı korrupsiya əməliyyatlarının başlıca fiqurlarından biri olub. Nəticədə sabiq başçının haqqında danışılan oğlunun da həbs edilmə ehtimalı meydana çıxmışdı. Məsələn, vəkil-hüquqşünas Xəyal Beşirov Trendə açıqlamasında bildirmişdi ki, Adil Adilzadə də məsuliyyətə cəlb oluna bilər. “Alimpaşa Məmmədov dəyəri milyonlarla manat olan əmlakları çox cüzi - belə desək simvolik qiymətlərə öz oğlunun adına olan şirkətlərə satıb. Əgər Adil Adilzadənin hüquqazidd əməllərin törədilməsində şəxsən iştirak etməsi, hər hansı sənədləşmədə imza atması və ya digər qanunsuz hərəkətlər aşkarlanaraq sübuta yetirilsə, əlbəttə ki, o da məsuliyyətə cəlb olunacaq. Bütün bu məsələlər istintaqın gedişində məlum olacaq” deyə Beşirov vurğulamışdı.

Lakin proseslər fərqli istiqamətdə inkşaf etdi: A.Məmmədov həbsdə qalsa da, onun oğlunun da həbs olunacağına dair ehtimallar özünü doğrultmadı. Elə sabiq başçının müsadirə olunan əmlaklarını geri qaytarmaq fikrinə düşməməsi də bununla izah olunur. İddialara görə, Şəmkirin keçmiş rəhbərinin həyata keçirdiyi korrupsiya əməliyyatları o qədər açıqdır ki, A.Məmmədov bu əməllərin yenidən gündəmə gəlməsində maraqlı deyil. Bildirilir ki, o, belədə oğlunun adı ətrafında məlum faktların aktuallaşmasından narahatdır. Əks təqdirdə Adil Adilzadənin qanunsuzluqlarda iştirakı yenidən müzakirə mövzusu ola və ona başağrısı yarada bilər.

Xatırladaq ki, A.Məmmədov 2022-ci ilin aprel ayında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində həbs olunub. Onun barəsində Cinayət Məcəlləsinin 179.4-cü (mənimsəmə), 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.2 və 311.3.3-cü (təkrar, külli miqdarda rüşvət alma) maddələri ilə ittiham irəli sürülüb və məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Mətbuatda onun bir sıra əmlakları üzərinə həbs qoyulduğu bildirilib. Söhbət aşağıdakılardan gedir:

1. “Azfarel” MMC balıqyetişdirmə və emalı müəssisəsi (bazar dəyəri 8 milyon 270 min manat);
2. “Abad Şəmkir” MMC-yə məxsus daşınan və daşınmaz əmlaklar (bazar dəyəri 1 milyon 335 min manat);
3. Bakı şəhərində yerləşən iki mənzil (bazar dəyəri 676 min manat).

Sonda onu da deyək ki, bu il oktyabrın 31-də Gəncə Şəhər Ağır Cinayətlər Məhkəməsində Alimpaşa Məmmədovun cinayət işi üzrə növbəti iclas keçirilib.

Prosesdə iş üzrə zərərçəkmiş qurum kimi tanınan Sahibkarlara Kömək Fondunun nümayəndəsi məhkəmə istintaqının yenilənməsi barədə vəsatət verib. Hakimlər vəsatəti təmin edib.

Növbəti məhkəmə iclası dekabrın 5-nə təyin olunub.

***Toğrul Əliyev***

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 12



## 5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# "Azərbaycan tolerantlıq ənənəsinə görə dünyaya örnəkdir"

*İlahiyyat İnstitutunun rektoru: "Müxtəlif dini qrupların problemsiz bir şəkildə yaşamasını təmin edən Azərbaycan modelinin müvəffəqiyyətli olmasının ən əsas səbəblərindən biri də ölkəmizdə yaşayan bütün dinlərə və məzhəblərə eyni münasibətin göstərilməsidir"*



***Azərbaycan çoxəsirlik tolerantlıq ənənəsinə malikdir. Elə buna görə əsrlərdir azsaylı xalqlar milliyyətindən, dinindən asılı olmayaraq Azərbaycanda mehriban şəraitdə yaşayır. Azərbaycan xalqı müsəlman dininin daşıyıcısı olsa da, xristian, yəhudi və digər dinin daşıyıcılarına hörmətlə yanaşır. Elə Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinovla da söhbətimiz bu mövzuda oldu:***

***-Aqil müəllim, ölkəmiz müxtəlif dini konfesiyaların birgəyaşayış mərkəzi sayılır. Tolerantlıq ənənəmiz dünyada bir model olaraq nümunə çəkilir. Necə oldu ki, Azərbaycan xalqı müxtəlif yad təsirlərə baxmayaraq bu ənənəni davam etdirə bildi?***

-Bildiyimiz kimi Azərbaycan tarixən müxtəlif dinlərin və mədəniyyətlərin qovuşduğu bir məkan olmuşdur. Burada tarix boyunca Zərdüştlik, Yəhudilik, Xristianlıq və İslam kimi dünyanın böyük dinləri yayılmışdır. Tarixdə olduğu kimi günümüzdə də bu vəziyyət eynilə davam edir. Hal-hazırda ölkəmizdə üç İbrahimi dinin nümayəndələri birlikdə yaşayır və aralarında ictimai zəmində hansısa bir problem yaşamırlar. Şübhəsiz ki, bunun bir sıra səbəbləri vardır. Bu səbəbləri üç əsas başlıq altında toplamaq mümkündür. Bunlardan birincisi Azərbaycan xalqının ictimai strukturunun ifratçılığa meylli olmamasıdır. XII-XIII əsrlərdə yaşamış məşhur coğrafiyaşünas Yaqut əl-Həməvi özünün məşhur əsəri olan "Mücəmulbüldan"-da hələ o dövrdə belə Azərbaycan əhalisinin mülayim xasiyyətli olduğundan bəhs etmişdir. Həqiqətən də Azərbaycan xalqı tarix boyunca ifrat meyllərdən uzaq olmuşdur. Təsadüfi deyil ki, istər keçmişdə, istərsə də hal-hazırda müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar. Məsələn, Azərbaycanın Qəbələ rayonunda etnik udilərin yaşadığı Nic adlı bir qəsəbə var. Udilər yerli azərbaycanlılardan fərqli etnik bir qrup olmaqla yanaşı həm də dünyada mövcud olan ən qədim xristian kilsələrindən biri olan Qafqaz-Alban kilsəsinə mənsubdurlar. Əhalisinin demək olar ki, hamısı müsəlman olan Qəbələdə ancaq bu qəsəbənin əhalisinin əksəriyyətini xristian udilər təşkil edirlər. Əsrlərlə müsəlman çoxluğun içində yaşasalar da tarix boyunca udilər istər etnik, istərsə də dini zəmində heç bir diskriminasiyaya məruz qalmamışlar. Bu gün Nic kəndində udilərlə birlikdə müsəlmanlar da yaşayır və hər iki konfesiyanın nümayəndələri bir-birlərinin dini bayramlarında iştirak edir və dostluq şəraitində yaşayırlar. Azərbaycanın başqa bir bölgəsi olan Qubanın "Qırmızı qəsəbə" adlanan bir məntəqəsində də "dağ yəhudiləri" adlanan yahudi qrup da eyni şəkildə tarix boyunca burada azad bir şəkildə öz dinləri çərçivəsində yaşamışlar. Bu faktların sayını artırmaq mümkündür. Bütün bunlar ölkəmizdə yaşayan əhalinin ifratçılıqdan uzaq bir sosial struktura sahib olduğunu göstərir.

Müxtəlif dini qrupların problemsiz bir şəkildə yaşamasını təmin edən ölkəmizin modelinin müvəffəqiyyətli olmasının ən əsas səbəblərindən biri də Azərbaycan dövlətinin dünyəvi strukturu və dövlətin ölkə ərazisində yaşayan bütün dinlərə və məzhəblərə eyni münasibəti göstərməsidir. Hüquqi dünyəvilik prinsipi hələ 1918-ci ildə qurulan və İslam şərqinin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti dövründən qəbul olunmuşdur. 1991-ci ildə müstəqilliyini yenidən qazanan Azərbaycan respublikası da bu prinsipi qəbul etmiş və dövlətin idarəsində heç bir dini dünyagörüşünü əsas almamış, eyni zamanda insanların öz dinlərini sərbəst yaşatmalarını da təmin etmişdir. Hətta deyə bilərik ki, dövlət dini qrupların başda maddi problemlər olmaqla qarşılaşdıqları bütün çətinliklərin həllində də dini icmalara köməklik göstərmişdir. Sovet dövründə dağıdılan bir çox məscid, kilsə və sinaqoq dövlət tərəfindən təmir edilmiş, bəziləri isə yenidən tikilərək insanların istifadəsinə verilmişdir.

Azərbaycanda dövlət-din münasibətləri dünyəvilik prinsipi ilə tənzimlənir. Lakin Azərbaycanda tətbiq olunan dünyəvilik prinsipi dini cəmiyyətin həyatından təcrid etməyi qarşısına məqsəd qoyan eksklüziv bir dünyəvilik anlayışı deyildir. Bu öz ifadəsini ən gözəl şəkildə Heydər Əliyevin "Bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik" sözlərində tapır. Bu gün Azərbaycanda Sovet dövründə zərbə alan islam ənənəsinin dirçəldilməsinə dövlət tərəfindən qayğı göstərilir. Təkcə onu qeyd etmək kifayət edir ki, müstəqilliyimizi əldə etdiyimiz dövrdə Azərbaycanda 18 məscid fəaliyyət göstərdiyi halda bu gün iki mindən çox məscidimiz var və bu ibadətgahların bir çoxunun bərpası dövlət tərəfindən həyata keçirilmişdir. Ölkəmizdə istər dağıdılmış dini abidələrin bərpasına, istərsə də yeni dini ibadətgahların tikilməsinə dövlət tərəfindən maddi dəstək verilir. Bibi Heybət, Təzəpir, Əjdərbəy, Şamaxı came-məscidləri, Gəncə İmamzadə kompleksi kimi önəmli ibadət ocaqları dövlət vəsaiti ilə bərpa olunmuşdur. Heydər məscidi başda olmaqla bir çox ibadət ocağı isə yenidən inşa edilmişdir.

***-Bu gün məscidlərlə yanaşı sinaqoqlara, kilsələrə də dövlət eyni qayğını göstərir. Müxtəlif dinlərə qarşı dözümlülük demək olarmı ki, həm də bizim dinimizdən irəli gəlir?***

-Azərbaycanda xüsusilə yəhudi və xristian icmalarının müsəlmanlarla birlikdə sülh şəraitində yaşamalarını təmin edən səbəblərdən biri də ölkənin böyük əksəriyyətinin dini olan İslam dininin başqa dinlərə qarşı ehtiramı olmuşdur. Həm Qurani-Kərimə həm də peyğəmbərimizin hədislərinə nəzər saldıqda dinin bu iki əsas mənbəyində başqa dindən və fikirdən olan insanlara qarşı dözümlü münasibətin öz əksini tapdığını və radikallığın əsas göstəricisi olan dözümsüzlüyün rədd edildiyini görürük. Məsələn, Quran İslam ümmətini "orta bir ümmət" (Bəqərə, 143) kimi təqdim edir. Orta ümmət bütün ifrat tendensiyalardan uzaq olan ümmətdir. Quran eyni zamanda radikal cərəyanların əsas xüsusiyyətlərindən olan dinin əmrlərini zorla insanlara mənimsətmək və öz dinlərini başqa dindən olanlara zorla qəbul etdirmək kimi fikirlərə mənfi münasibət göstərir. "Dində məcburiyyət yoxdur" (Bəqərə, 256) və "sizin dininiz sizə mənim dinim mənə" (Kafirun, 6) ayələri bunun ən bariz nümunəsidir. Məhəmməd Peyğəmbərin Mədinədə qurduğu kiçik şəhər dövlətində yəhudilər və hətta müsəlmanlara toxunmayan bütpərəstlər belə öz dinlərini sərbəst bir şəkildə yaşama hüququna sahibdilər. Peyğəmbər Nəcrandan gələn xristian heyətinə Məscidinəbəvidə (Peyğəmbər məscidi) öz ibadətlərini icra eləmələrinə icazə vermişdir. Yenə Məhəmməd Peyğəmbərin həyatından bəhs edən tarixi mənbələrdə nəql olunan aşağıdakı tarixi fakt İslamın başqa dinlərə qarşı olan dözümlülüyünü əks etdirir:

Mənbələrdə qeyd olunduğuna görə bir gün peyğəmbər səhabələrindən bir qismi ilə oturarkən bir cənazə qafiləsi onlara yaxınlaşdı. Cənazə onların yanından keçərkən peyğəmbər ehtiram əlaməti olaraq ayağa qalxdı. Yanındakılar "Ey Allahın elçisi, bu axı yəhudi cənazəsidir" dedilər. O da "Məgər o insan deyilmi?" dedi. Bu kontekstdə peyğəmbərin kürəkəni və əmisi oğlu olan İmam Əlinin Misirə vali kimi göndərdiyi Malik Əştərə etdiyi tövsiyə çox mənalıdır. O, Malikə xitabən demişdir: "İnsanlar iki cürdür. Bir qismi sənin dində qardaşların, yəni müsəlmanlar, digərləri isə insanlıqda qardaşlarındır". Bu sözlər bəlkə iyirmi birinci əsrdə yaşayan insanlar üçün adi görünə bilər. Lakin nəzərə alsaq ki, bunlar təqribən min dörd yüz il bundan qabaq hələ insanlığın quldarlıq qurluşunda yaşadığı, qara dərililərin ağ dərililər tərəfindən insan kimi qəbul edilmədiyi bir dövrdə deyilib, o zaman bunların nə qədər dəyərli olduğu aydın olar.

***-Sizin rəhbərlik etdiyiniz ali təhsil müəssisəsində bununla bağlı tələbələrə hansı bilgilər verilir?***

-Azərbaycan İlahiyyat İnstitutunda bakalavr təhsili iki istiqamətdə, islamşünaslıq və dinşünaslıq üzrə həyata keçirilir. "Dinşünaslıq" ixtisası üzrə təhsil alan tələbələrə İslamla yanaşı, Yəhudilik, Xristianlıq, Hind-Çin dinləri kimi dünyada mövcud olan böyük dinlər haqqında geniş məlumat verilir. İslamşünaslıq ixtisasında da "dinlər tarixi" fənni tədris edilir. Qeyd edim ki, Dinşünaslıq ixtisası üzrə standartların hazırlanmasında Azərbaycan reallıqlarını nəzərə almaqla dünyanın digər aparıcı universitetlərində mövcud olan "Dini tədqiqatlar" (Religious Studies) bölmələrinin standartlarından faydalanılmışdır. Həm islamşünaslıq, həm də dinşünaslıq ixtisaslarının standartlarında multikulturalizm fənni də tədris olunur. "

Azərbaycan İlahiyyat İnstitutunda Magistratura səviyyəsində ixtisaslaşanlar içərisində "Dinlərin tarixi" ixtisaslaşması da mövcuddur. Bu ixtisaslaşma çərçivəsində müxtəlif dinlərin mahiyyəti, tarixi haqqında tədqiqatlar aparılır. Həmçinin "Dinin sosiologiyası" və "Dinin Psixologiyası" ixtisaslaşmalarında da tək bir dinin deyil, ümumilikdə dinlərin sosioloji və psixoloji aspektləri araşdırılır.

İnstitutumuzda Azərbaycanda fəaliyyət göstərən qeyri-İslam dini icmaları üçün də kadrlar yetişdirmək istiqamətində müxtəlif tədbirlər həyata keçirilir. AİI-nin Alban-Udi xristian dini icması ilə birlikdə 2021-ci ildə təşkil etdiyi "Xristianlıq" tədris kursu bu qəbildəndir. Kursun əsas məqsədi ölkədə multikultural mədəniyyəti inkişaf etdirmək, həmçinin sözügedən icmanın din sahəsindəki kadr potensialını gücləndirmək, Qafqaz-Alban xristian irsinin dərindən öyrənilməsini təmin etməkdir. Nic qəsəbəsində baş tutan kurs da AİI Elmi Şurasının qərarına əsasən, fənlərin tədrisi ali təhsil müəssisəsinin pedaqoji heyəti tərəfindən həyata keçirildi. Belə kursların gələcəkdə də təşkili nəzərdə tutulur.

İlahiyyat İnstitutunun tələbələrinin Azərbaycanda mövcud müxtəlif dinlərə məxsus ibadətgahlara səfəri təmin olunur. Bunun əsas məqsədi ölkəmizdəki müxtəlif dinlərin inanc və ibadət sistemi ilə əyani tanışlıqdır. Beləcə tələbələrimiz ölkəmizin tolerant mühiti ilə yaxından tanış olmaq imkanı əldə edirlər.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 13





# Qisməti şəhidlik zirvəsi olan Cavad

***44 günlük haqq savaşımızda göstərdiyi hünərlə adını şanlı zəfər tariximizə yazan Vətən qeyrətli minlərlə qəhrəman oğlanlardan biri də Cavad İbadovdur. 1996-cı il dekabrın 10-da Masallı şəhərində dünyaya göz açan bu, Vətən sevdalısı orta məktəbi bitirdikdən sonra 2014-cü ildə Azərbaycan Ordusunda hərbi xidmətə gedib. Öz Vətənini göz-bəbəyi kimi qorumaqla, yolunda canını belə fəda etməyə həmişə hazır durub.***

Həyatda başlıca istəyi yağıdan qisas almaq olan Cavad Cabir oğlu əsgəri borcunu layiqincə yerinə yetirdikdən sonra könüllü olaraq "N" saylı hərbi hissədə və Daxili Qoşunların Xüsusi Təyinatlı Dəstəsində MAXE kimi qulluq edib. İkinci Qarabağ müharibəsində Füzulinin, Hadrutun azadlığı uğrunda ağır ölüm-dirim savaşında böyük rəşadət göstərib. Oktyabrın 16-da şəhidlik zirvəsinə ucalıb. Xeyli müddətdən sonra, yəni 29 noyabr 2020-ci ildə Masallı şəhər qəbiristanlığında canından əziz tutduğu torpağa tapşırılıb. Ölümündən sonra Füzulinin, Cəbrayılın, Xocavəndin, Kəlbəcərin azadlığı uğrunda medallara layiq görülüb

Bəli, şərəfli ölümü əsl qəhrəmanlıq məktəbi kimi tarixə yazılan Cavad cismən aramızda olmasa da, mənən qəlblərdə yaşayır, hər an insanlar tərəfindən ehtiramla xatırlanır. Qərinələr boyunca da, belə olacaq. Vətən uğrunda şəhid olanlar heç zaman ölmürlər...

***Zəfər Orucoğlu, AJB üzvü***

# Ucarın 9 aylıq Dövlət büdcəsi statistikası

***2023-cü ilin yanvar-sentyabr aylarında dövlət büdcəsinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,1 faiz artaraq 208,5 min manat təşkil etmişdir. Bu dövrdə büdcədən 203,5 min manat və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10,5 faiz çox vəsait xərclənib.***

Daxilolmaların 26,8 faizi torpaq vergisi, 16,6 faizi əmlak vergisi 0,2 faizi avtomobil dayanacaqları üçün ödənişlər, 7,1 faizi, əmlakın özgəninkiləşdirilməsindən, 24,1 faizi bələdiyyə əmlakının icarəyə və istifadəyə verilməsindən, 17,9 faizi dövlət büdcəsindən verilən dotasiya, 7,3 faizi digər vergi olmayan daxilolmalar hesabına təmin edilib.

Büdcə vəsaitlərinin 77,3 faizi yerli özünü idarəetmə orqanlarının 2,6 faizi sosial müdafiə və sosial təminat, 3,1 faizi mənzil kommunal təsərrüfatına 0,1 faizi mühitin mühafizəsinə 1,5 faizi nəqliyyat və rabitə, 15,4 faizi digər sahələrin maliyyələşdirilməsinə xərclənib.

***Emin Qəhrəmanov, Ucar Statistika İdarəsinin baş məsləhətçisi***

# Dünya şöhrətli Lider...

***Heydər Əliyevin Azərbaycanın siyasi səhnəsinin birinci şəxsi kimi fəaliyyətə başlaması və onun ölkə həyatına gətirdiyi əzəmətli inkişaf meyilləri dahi şəxsiyyətlərin tarixin gedişində həlledici rol oynadıqlarını sübuta yetirmək üçün ən dəyərli nümunələrdən sayıla bilər. Bu nümunə həm də ona görə xüsusi çəkiyə malikdir ki, Heydər Əliyev özünün siyasi taleyində sözügedən sosioloji qanunauyğunluğu iki dəfə sübuta yetirməli olub.***

Azərbaycan tarixinin Heydər Əliyevin aktiv siyasi fəaliyyəti dövrünə təsadüf edən iki böhranlı mərhələsində xalqın və ölkənin xilası və inkişafının əsasının qoyulması bilavasitə onun möhtəşəm tarixi xidməti kimi qəbul edilir və dəyərləndirilir. Bu mənada, Heydər Əliyevin timsalında tarixdə şəxsiyyətin rolu özünün ən bariz ifadəsini tapmış olur.

Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən islahatlar və görülən strateji tədbirlərin fonunda respublikamız sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə malik olan respublikaya çevrilmişdi.



Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır.

Azərbaycanda gərgin və böhranlı vəziyyətdə xalq ümidini dahi siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevə bağlamış, 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı Ümummilli Liderə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etmişdi. Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. YAP-ın yaranması, Ümummilli Lider Heydər Əliyevin bu partiyaya Sədr seçilməsi respublikanın gərgin, təhlükəli ictimai-siyasi vəziyyətindən və getdikcə bu vəziyyətin daha da kəskinləşməsindən irəli gələn tarixi zərurət oldu. Digər tərəfdən, ölkədə 1993-cü ilin iyun hadisələri zamanı hətta ozamankı hakimiyyət də Heydər Əliyevi Bakıya dəvət etməyə məcbur olmuş, xalqın təkidli tələbi və iqtidarın çoxsaylı xahişi ilə Ulu Öndər Heydər Əliyev Bakıya qayıtmışdı. Beləliklə, 1993-cü il iyunun 9-da Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev xalqın təkidli tələbi ilə Bakıya qayıtdı, ölkənin xaos, vətəndaş qarşıdurması, dövlət müstəqilliyinin itirilməsi təhlükəsindən xilas edilməsi tarixi missiyasını həyata keçirməyə başladı. İyunun 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi, həmin gün Azərbaycan xalqının tarixinə Milli Qurtuluş Günü kimi düşdü. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Ulu Öndər Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı. Ümummilli Lider Heydər Əliyevin müstəqillik dönəmində ölkəmizə rəhbərlik etdiyi illər sabitlik və inkişaf dövrü kimi yadda qalıb.

1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərinin nəticələrinə müvafiq olaraq xalqın dərin etimadı ilə Azərbaycan Prezidenti seçilən Ümummilli Lider Heydər Əliyev qısa zamanda Özünün ümummilli maraqlara xidmət edən və ali prinsiplərə söykənən fəaliyyəti ilə ölkədə milli həmrəyliyi, bütövlüyü və inkişafı təmin etdi. Bu seçkilər ölkədə keçirilmiş ilk demokratik prezident seçkiləri idi. 10 oktyabr 1993-cü il tarixində keçirilmiş andiçmə mərasimində Ulu Öndər Heydər Əliyev "Azərbaycan xalqı öz tarixinin ən mürəkkəb, faciəli dövrünü yaşayır. Məhz bu dövrdə mənim üzərimə qoyulan bu vəzifənin məsuliyyətini dərindən dərk edirəm və əmin etmək istəyirəm ki, bütün fəaliyyətimi, bütün həyatımı bu etibarı doğrultmaq, xalqın ümidlərini doğrultmaq işinə həsr edəcəyəm. Belə bir yüksək məsuliyyətli vəzifəni Öz üzərimə götürərkən, birinci növbədə Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm", - deyə qeyd etmişdi. Məhz bu cür oldu.

İftixar hissi ilə qeyd edə bilərik ki, Ümummilli Liderimizin siyasəti uğurla və inamla davam etdirilir, güclü və nüfuzlu Azərbaycan yeni zirvələr fəth edir. Bu gün müasir müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında uğurla inkişaf edir.

20 il bundan əvvəl Azərbaycan xalqının cənab İlham Əliyevə böyük etimad göstərməsindən sonra həyata keçirilən uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub.

31 oktyabr 2003-cü il tarixdə keçirilən andiçmə mərasimindəki nitqində "Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Azərbaycanda demokratiya daha da inkişaf edəcək, siyasi plüralizm, söz azadlığı təmin olunacaqdır. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Bütün bunları etmək üçün Azərbaycanda çox işlər görmək lazımdır", - deyən cənab İlham Əliyevin liderliyi ilə Azərbaycan ötən müddət ərzində qarşıya qoyduğu strateji məqsədlərə nail oldu. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə nəhəng enerji layihələri, ölkənin hər yerində abadlaşma, müasirləşmə, Azərbaycanın dünyada tanınması və milli maraqlara xidmət edən çoxsaylı digər məqsədlər artıq gerçəkliyə çevrilib. Beləliklə, bu gün Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edən Azərbaycan uğurlu gələcəyə doğru irəliləyir, ölkəmizin bu günü, gələcəyi əmin əllərdədir.

Beynəlxalq hüquq normalarına əsaslanaraq əks-hücum əməliyyatlarını uğurla həyata keçirən müasir və qüdrətli Azərbaycan Ordusu Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyü bərpa etdi. Heç şübhəsiz, sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi çoxəsrlik dövlətçilik tariximizin şanlı qürur səhifəsidir.

Xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan bütün cəbhələrdə - istər döyüş meydanında, istər siyasi-diplomatik müstəvidə, istərsə də informasiya səbhəsində mütləq qalibiyyət əldə etdi. Heç şübhəsiz, bu qələbənin memarı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Bir sözlə, 44 günlük - Azərbaycanın tam qələbəsi, Ermənistanın isə kapitulyasiyası ilə nəticələnən Vətən müharibəsi tarixi ədalətin bərpası ilə başa çatdı. Bu, həm də ən böyük zəfər salnaməmizin yazılmasıdır.

2023-cü ilin sentyabrında keçirilən 24 saatlıq lokal xarakterli anti-terror əməliyyatı da Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Ordumuzun Qarabağdakı separatçı rejimə və oradakı qeyri-qanuni erməni silahlı qüvvələrə qarşı apardığı 24 saatlıq lokal xarakterli anti-terror əməliyyatı növbəti dəfə Azərbaycan dövlətinin möhtəşəm zəfəri ilə nəticələndi. Şah İsmayıl Xətainin, Nadir şahın qurduğu imperiyaların süqutundan sonra Azərbaycan ilk dəfə olaraq bu miqyasda tarixi torpaqlarını qaytarmağa nail oldu!

Müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin ideyaları əsasında inkişafını davam etdirir. O da xüsusi olaraq vurğulanmalıdır ki, Ulu Öndərimizin zəngin dövlətçilik irsi əbədiyaşardır. Bu gün də Ümummilli Liderin dövlətçilik irsi və ideyaları dərindən öyrənilir, geniş təbliğ olunur.

***Qoşqar Niftəliyev, Zərdab Rayon Statistika İdarəsinin rəisi***

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 14



# Qaraheybətdə helikopter qəzasından 2 il ötür



***Dövlət Sərhəd Xidmətinin (DSX) hərbi helikopterinin Xızı rayonu ərazisində yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğramasından 2 il ötür.***

"Unikal" xəbər verir ki, 2021-ci il noyabrın 30-da saat 10:40 radələrində Dövlət Sərhəd Xidmətinin hərbi helikopteri Xızı rayonunda yerləşən "Qaraheybət" aviasiya poliqonunda təlim uçuşları yerinə yetirərkən qəzaya uğrayıb.

Hadisə nəticəsində 14 nəfər yüksək rütbəli zabit şəhid olub, 2 nəfər isə ağır yaralanıb:

Şəhid olan hərbçilərin adları:

1. Polkovnik Cavadov Füzuli Əli İbram oğlu;
2. Polkovnik-leytenant Nəzirov Emil Nəzir oğlu;
3. Mayor Həsənov Elmir Mircəlil oğlu;
4. Mayor Əhmədov Elbrus Səmrəddin oğlu;
5. Mayor Mayılov Emil Şahid oğlu;
6. Mayor Məmmədov Murad Yaşar oğlu;
7. Mayor Əliyev Emil Elman oğlu;
8. Tibb xidməti kapitanı Əhmədxanov Ceyhun Xanlar oğlu;
9. Kapitan Bayramlı Cavid Əhliman oğlu;
10. Kapitan Əliyev Xəyyam Əlixan oğlu;
11. Kapitan Qaraisayev Teymur Ənvər oğlu;
12. Leytenant Süleymanov Abdulla Telman oğlu;
13. Baş leytenant Nağıyev Fərid Təyyar oğlu;
14. Nəbiyev Elçin Fikrət oğlu (ehtiyatda olan polkovnik).

Hadisə zamanı polkovnik-leytenant Cəfərov Emil Məmməd oğlu və kapitan Ədilov Ramin Ramiz oğlu yaralanıblar.

Faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb və cinayət işinin istintaqı Baş Prokuror tərəfindən xüsusi nəzarətə götürülüb.

# Şərab içmək insanı xərçəng xəstəliyindən qoruyur



***Şərabın tərkibində olan təbii maddələr, flavonoidlər, iltihab əleyhinə və antioksidant xüsusiyyətlərə malikdir.***

"Unikal" xəbər verir ki, şərab içmək sağlam yuxu və yaxşı əhval-ruhiyyəni təmin edən melatonin və serotonin hormonlarının istehsalını stimullaşdırır.

"Foods" jurnalında dərc olunan araşdırma məqaləsində qeyd olunub ki, bir çox insan alkoqoldan sui-istifadənin mənfi nəticələrini bilsə də, bu içkilərin orta miqdarı bədən üçün faydalı ola bilər. Şərabın antioksidan və iltihab əleyhinə xüsusiyyətləri polifenolik birləşmələrin, flavonoidlərin və digər faydalı maddələrin, məsələn, qəhvə turşusunun tərkibinə bağlıdır.

Flavonoidlər təbii boyalar və aşılayıcılardır. Onlar demək olar ki, bütün tərəvəz və meyvələrdə, o cümlədən üzümdə olur. Onlar sərbəst radikallarla reaksiya verərək və oksigenin aktiv formalarından (oksidləşmə) hüceyrə zədələnməsinin qarşısını alaraq orqanizmi vaxtından əvvəl qocalmadan qoruyurlar. Qəhvə turşusu oxşar xüsusiyyətə malikdir. Şərabın tərkibində A, C və E vitaminləri də var. A vitamini dəri və görmə üçün faydalıdır, C vitamini immunitet sistemini gücləndirir və kollagen sintezini təşviq edir, E vitamini isə xərçəng və ürək xəstəliklərindən qoruyur.

Bu içkinin istehlakı keyfiyyətli yuxu və yaxşı əhval-ruhiyyədən məsul olan serotonin və melatonin hormonlarının istehsalına da kömək edir.

***Ağarza Elçinoğlu***

# Avtomobil elanları saytında vətəndaşlara qarşı dələduzluq edən şəxs saxlanıldı

***Mingəçevir Şəhər Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat nəticəsində vətəndaşların etibarından sui-istifadə edərək onları aldadan şəxs saxlanılıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan "Unikal"a verilən məlumata görə, polisə müraciət edən zərərçəkmişlər avtomobil elanları saytında nəqliyyat vasitəsi almaq üçün tanımadıqları şəxsə onlayn yolla beh göndərdiklərini və daha sonra onunla əlaqə saxlamağın mümkün olmadığını bildiriblər. Keçirilmiş əməliyyat-texniki tədbirlər nəticəsində vətəndaşlara qarşı dələduzluq edən Samux rayon sakini Azər Əliyev saxlanılıb.

Araşdırma zamanı məlum olub ki, A.Əliyev avtomobil elanları saytında digər satıcılara məxsus avtomobillərin fotoşəkillərini və məlumatlarını özünə məxsus nəqliyyat vasitəsi kimi təqdim edib. Saxlanılan şəxs avtomobilləri almaq istəyən alıcılardan ilk öncə müxtəlif məbləğlərdə beh tələb edib, daha sonra isə guya etibarnamə vermək üçün onlardan şəxsiyyət vəsiqələrinin fotoşəkillərini istəyib.

İz itirmək məqsədilə həmin şəxsiyyət vəsiqələrindən istifadə edərək zərərçəkmişlərin adına onlayn ödəmə sistemlərində hesablar yaradıb və növbəti dəfə avtombil almaq istəyən şəxslər də ilkin ödənişi məhz həmin hesablara göndəriblər. Alıcılardan beh aldıqdan sonra isə A.Əliyev telefon zənglərinə cavab verməyərək onlarla əlaqəni kəsib və həmin şəxslərin pullarını dələduzluq yolu ilə mənimsəyib.

Azər Əliyevin digər vətəndaşlara qarşı da analoji əməllər törətdiyi istisna edilmir. Zərərçəkən başqa şəxslər olarsa, bu barədə polis orqanlarına məlumat vermələri xahiş olunur.

Vətəndaşlara isə bir daha tövsiyə olunur ki, elan saytlarında tanımadıqları şəxslərə onlayn ödənişlər etməsinlər.

# Ağstafada əkin sahələri suvarma suyu ilə təmin edilir



***Ağstafada meliorativ tədbirlər. Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən bildirilib ki, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Ağstafa rayonunda yerləşən yerli idarəsi rayonunu 24830 hektar suvarılan əkin sahəsinin suvarma suyu ilə təminatına xidmət edir.***

Suvarmada 4 mənbədən istifadə edilir. Bunlar Ağstafaçay su anbarı, Həsənsu çayı, Ağ Göl su anbarı və subartezian quyularıdır. Suvarma suyu su istehlakçılarına ümümilikdə 825 km üzunluğunda magistral, təsərrüfatlar arası və təsərrüfatdaxili kanallar vasitəsilə çatdırılır. Bu kanalların 622 km-dən artığı torpaq məcralı,194 km beton üzlük çəkilmiş və 8,6 km qapalı şəbəkədən ibarətdir. Su itkisinin qarşısının alınması istiqamətində Ağstafa rayonunda son illər bir sıra işlər görülür. Torpaq məcralı Poylu arxının beton üzlüyə alınmaqla əsaslı təmir işləri aparılır. Bununla həmin arxda su itkisini 20-30 % azaltmaqla Poylu və Dağkəsəmən kəndlərinin əkin sahələrində suvarma xeyli yaxşılaşacaq.

Hazırda rayonda payızlıq dənli bitkilərin suvarılmasına hazırlıq məqsədilə bütün işlər yekunlşamaq üzrədir. Suvarılmanı mütəşəkkil keçirilməsi üçün mütamadi olaraq kanallarda lildən və kol-kosdan təmizləmə işləri aparılır. Mexanizmlərlə hazırkı vaxta kimi 350 km məsafədə kanallar və arxalar lildən təmizlənib və əlavə olaraq 100 km lildən təmizləmə işlərinin aparılması davam etdirilir.

Qeyd edək ki, idarənin balansında 2200 hektar əkin sahəsində suvarmanın yaxşılaşdırılması üçün 4 ədəd nasos stansiya vardır ki, 3 ədəd nasos stansiyada cari təmir işləri aparılıb və onlar tam işlək vəziyyətdədir. 1957-ci ildə istifadəyə verilən və istismar müddətini başa vurmuş Qıraq Kəsəmən nasos stansiyası yenidən bərpa edilib və yaxın vaxtlarda təsərrüfatları suvarma suyu ilə təmin etmək üçün su istifadəçilərinin istifadəsinə veriləcək. Həmin nasos stansiya vasitəsilə Qıraq Kəsəmən kəndinin 250 hektara yaxın əkin sahəsində suvarma xeyli yaxşılaşacaq.

***Hüseyn***

# Bu ilin 9 ayında Ucarda tikinti statistikası belə olub...



***2023-cü ilin yanvar-sentyabr aylarında müəssisə və təşkilatlar tərəfindən rayonun iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala bütün maliyyə mənbələrindən 7501,5 min manat və ya 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 17,1 faiz az investisiya yönəldilib.***

Əsas kapitala yönəldilmiş investisiyanın 6331,7 min manatı və ya 84,4 faizi dövlət, 1169,8 min manatı və ya 15,6 faizi isə qeyri-dövlət sektorunun payına düşüb.

2023-cü ilin yanvar-sentyabr aylarında əsas kapitala yönəldilmiş investisiyanın 7475,0 min manatını və ya 99,6 faizini tikinti-quraşdırma işləri təşkil etmişdir. Tikinti-quraşdırma işlərinin 6317,0 min manatı və ya 84,5 faizi dövlət, 1158,0 min manatı və ya 15,5 faizi, qeyri-dövlət müəssisələrinin payına düşüb.

2023-cü ilin yanvar-sentyabr aylarında 4901,4 min manat dəyərində əsas fondlar istifadəyə verilmişdir. Əsas fondların 4664,6 min manatı dövlət sektorunun, 236,8 min manatı qeyri-dövlət sektorunun payına düşmüşdür. Rayonun ayrı-ayrı vətəndaşları tərəfindən ümumi sahəsi 824,7 kv.metr olan 8 fərdi yaşayış evi inşa olunmuşdur ki, onların da dəyəri 236,8 min manat təşkil edib.

Müəssisələrin öz istehsalı olan malların təqdim edilməsi, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi 2022-ci illin eyni dövrü ilə müqayisədə 83,2 faiz artaraq 5248,5 min manat olub.

***Cəlil Vəlimməmmədov,***
***Ucar Statistika idarəsinin aparıcı məsləhətçisi***

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 15



# ABŞ İrana qarşı əlavə sanksiyalar tətbiq etdi

***ABŞ İran və Şimali Koreyaya qarşı əlavə sanksiyalar tətbiq edib.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Maliyyə Departamentinin saytında məlumat dərc olunub.

Belə ki, İran vətəndaşları və təşkilatları yenilənmiş siyahıya terrorçuluqla əlaqələri, Şimali Koreyalılar isə kiber təhlükə səbəbindən daxil edilib.

***Ağarza Elçinoğlu***

# HƏMAS İsrailə atəşkəs müqabilində ölü girovlar təqdim etdi

***Qəzza zolağında humanitar atəşkəsin vaxtı uzadılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Fələstinin radikal HƏMAS hərəkatı açıqlayıb.

Bundan əvvəl İsrail ordusu məhbusların azad edilməsinin davam etdirilməsi üçün vasitəçilik səyləri fonunda atəşkəsin uzadıldığını açıqlamışdı.

HƏMAS bəyan edib ki, İsrail atəşkəsin uzadılması müqabilində girov saxlanılan 7 qadın və uşaq, eləcə də 3 ölü girovun cəsədini qəbul etməkdən imtina edib.

# "Saakaşvili xəstəxanada şokoladın içində yaşayır"

***"Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili səhhətində yaranan problemlər barədə ictimaiyyəti aldadır. Siyasətçi Vivamed həbsxana klinikasında qalmağa davam etməməlidir".***

"Unikal" xəbər verir ki, bunu "Vətəndaşlar" Partiyasının liderlərindən biri Aleko Elisaşvili deyib. "Əgər mənə qalsa, Saakaşvilinin boynundan tutub ya Qldani, ya da Rustavi həbsxanasına aparardım. Bir ildir xəstəxanada şokoladın içində yaşayır. Mixail Saakaşvili fırıldaqçı və təxribatçıdır. İndi aydın oldu ki, onda demensiya və kaxeksiya yoxdur. Saakaşviliyə heç nə olmayıb və o, bütün ili iki otaqda uzanaraq yalnız səhhətindən danışıb. Onu həbs etmək lazımdır", - Elisaşvili izah edib.

Saakaşvili ona qarşı bir sıra cinayət işlərinin olmasına baxmayaraq, 2021-ci ilin oktyabrında vətəninə qayıdıb. Nəticədə Gürcüstanın eks-prezidenti həbs edilib. Saakaşvili özü həbsini siyasiləşmiş adlandırıb və aclıq aksiyasına başlayıb. Sonradan eks-prezidentin səhhəti ciddi şəkildə pisləşib, 2022-ci ilin mayında müayinə olunmaq üçün həbsxanadan paytaxtdakı klinikaya köçürülüb. Vəziyyətinə baxmayaraq, o, Gürcüstan siyasətində iştirak etməyə hazır olduğunu dəfələrlə bəyan edib, Vahid Milli Hərəkat növbəti seçkilərdə qalib gəlsələr, siyasətçinin baş nazirliyə namizədliyini irəli sürəcəyini istisna etməyib.

***Gülayə Mecid***

# "Müharibə daha bir il də davam edəcək" - Sergey Ryabkov

***"Ukrayna münaqişəsi daha çox sülh sazişinin bağlanması ilə deyil, Rusiya tərəfinin qarşıya qoyduğu bütün məqsədlərin reallaşması ilə bitəcək".***

"Unikal" xəbər verir ki, bunu Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov "İzvestiya" qəzetinə müsahibəsində deyib. O, 2024-cü ildə Moskva ilə Kiyev arasında atəşkəs gözlənilmədiyini bildirib.

Siyasətçi, həmçinin bildirib ki, ABŞ-nin Ukraynanı Rusiya hakimiyyəti ilə barışıq imzalamağa məcbur edə biləcəyini düşünmək üçün heç bir əsas yoxdur.

"Müharibə daha bir il də davam edəcək. Baxmayaraq ki, kəskin dönüşlərin ola biləcəyini və Moskva ilə Kiyevin sülh danışıqlarına başlaya biləcəyini heç vaxt istisna etmək olmaz. Eyni zamanda deyilənlər həm də o deməkdir ki, Rusiya tərəfinin heç bir güzəştə getmək niyyəti yoxdur və Rusiya-Ukrayna müharibəsi başlayan gün Rusiya prezidenti Vladimir Putinin qarşısına qoyduğu məqsədlər tam şəkildə həyata keçiriləcək. Rusiya və Rusiyanın hakim elitası üçün hazırkı Rusiya-Ukrayna hərbi münaqişəsinin təqdim olunduğu ideoloji dəstək Rusiyaya öz mövqeyindən bir santimetr belə əl çəkməyə imkan vermir.

Bütün bunlar qlobal miqyasda bir şeyi ifadə edə bilər: Rusiya-Ukrayna müharibəsinin başlaması ilə xüsusilə aydınlaşan yeni qlobal "böyük parçalanma" dərinləşməkdə davam edəcək. Geosiyasi rəqabət və qarşıdurma da güclənəcək. Ola bilsin ki, iki düşərgə arasında yeni "dəmir pərdə" yaransın ki, bunu şərti olaraq "birqütblü dünya tərəfdarları düşərgəsi" və "çoxqütblü dünya tərəfdarları düşərgəsi" adlandıra bilərik. Təbii ki, bütün bunlar Ermənistan üçün yaxşı perspektivlər açmır. Nəzərə alsaq ki, hər şeydən asılı olmayaraq, Rusiya Ukrayna ilə hərbi qarşıdurmadan heç vaxt məğlub çıxmayacaq, çünki onun nüvə arsenalı var, bu heç vaxt unudulmamalıdır, o zaman Ermənistan yəqin ki, öz yanaşmalarını daha qabarıq göstərməli olacaq".

***Gülayə Mecid***

# "Zaxarova Lavrovun təyyarəsində uça bilməz" - Rusiyaya nota verildi

***Rusiyanın xarici işlər naziri Sergey Lavrov ATƏT Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak etmək üçün Şimali Makedoniyaya səfər edib.***



"Unikal" xəbər verir ki, Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova Lavrovun təyyarəsinin Yunanıstan üzərindən Skopyeyə getməsinin səbəbini açıqlayıb.

"Bolqarıstan Xarici İşlər Nazirliyinin rəsmi notasında belə yazılıb: təyyarə Bolqarıstan üzərində uça bilər, lakin Mariya Zaxarova təyyarədə uça bilməz. Mənim Bolqarıstan üzərində təyyarəsiz uça biləcəyim və ya bunun üçün kosmosdan istifadə etməyin mümkün olub-olmadığı barədə heç nə deyilməyib", - Zaxarova yarızarafatla deyib. Məhz buna görə də Lavrovun təyyarəsinin Bolqarıstan ərazisindən keçməsinə icazə verilməyib.

***Ağarza Elçinoğlu***

# Mirzoyan Blinkenlə sülh müqaviləsini müzakirə etdi

***Ermənistan xarici işlər naziri Ararat Mirzoyan ABŞ dövlət katibi Entoni Blinkenlə görüşüb.***

"Unikal" xəbər verir ki, görüş Skopyedə ATƏT-in nazirlər konfransı çərçivəsində baş tutub.

Bildirilir ki, tərəflər Cənubi Qafqazda təhlükəsizlik və sabitliklə bağlı məsələlər müzakirə edilib. Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması prosesində baş verən son hadisələrə istinad edilib. Ararat Mirzoyan vurğulayıb ki, Ermənistan məlum sülh müqaviləsi layihəsi ilə bağlı təklifləri Azərbaycana göndərib. Görüş zamanı həmsöhbətlər Ermənistan-Amerika ikitərəfli gündəliyinə toxunublar.

***Gülayə Mecid***



# "Azərbaycan belə formatı davam etdirmək istəmir" - Ruben Babayan

***Qonşu ölkələrlə əbədi düşmənçilik ola bilməz, ona görə də dialoq həmin düşmənçiliyi aradan qaldırmaq üçün vacib məqamlardan biridir.***



"Unikal" xəbər verir ki, bunu Azərbaycanla danışıqlarda iştirak edən Ruben Babayan deyib.

O, iki il əvvəl Moskvada Ermənistan və Azərbaycan ictimai xadimlərinin şündə iştirak etdiyini bildirib: "Rusiya Federasiyasının vasitəçiliyi ilə keçirilən görüşdə Azərbaycan tərəfinin orada saxlanılan erməni əsirləri azad etməsinə dair razılıq əldə olunub".

Babayanın fikrincə, dialoq nə qədər zəruri olsa da, hələ də nəzəri cəhətdən həyata keçirmək mümkün deyil: "Çünki Rusiya artıq vasitəçi kimi çıxış edə bilməz, ilk görüşdən məlum idi ki, Azərbaycan belə formatı davam etdirmək istəmir.

Bu gün Rusiyanın öz problemləri var ki, onu belə görüşlərlə həll etmək istəyir, yəni qərəzsiz vasitəçi ola bilməz. Mən belə görüşə hazıram, amma vasitəçisiz. Yaxşı olardı ki, görüş yenidən keçirilsin, qarşı tərəfdə universal yanaşmaları bölüşən qərəzsiz ziyalılar olsun, əks halda bu, siyasətçilərin təmaslarına bənzəyər ki, bu da mənasızdır".

O, qeyd edib ki, bu istiqamətdə yalnız Ermənistan və Azərbaycan birgə fəaliyyət göstərməlidir: "İstək olacaq, görüş də olacaq. Rusiya Federasiyası bizi o qədər də maraqlandırmayan məsələlər haqqında düşünürdü. İlk görüşdə o, sülhə nail olmaqdan, dialoqun davam etdirilməsindən narahat olmadı, amma hamımızın Sovet İttifaqının qayıtmasını, imperiya Rusiyasının yenidən qurulmasını nə dərəcədə dəstəklədiyimiz məsələsinə toxundu. Rusiya Federasiyası o məntiqdə olduğundan iki xalq arasında tolerantlığa girə bilməz. Nə qədər çətin olsa da, qarşı tərəfin məntiqini anlamağa çalışmalı və dialoqa dəvət etməlisən".

***Ağarza Elçinoğlu***

# Mask ABŞ seçkilərində Baydenə səs verməyəcəyini bildirdi

***Amerikalı sahibkar və milyarder İlon Mask gələn il ölkədə keçiriləcək növbəti prezident seçkilərində ABŞ prezidenti Co Baydenə səs verməyəcəyini bildirib.***

"Unikal" xəbər verir ki, o, bu barədə Vaşinqtonda "The New York Times" tərəfindən təşkil edilən konfransda deyib. "Mən Baydenə səs verməyəcəm", - Mask ifadə edib. Milyarder Ağ Evə dövlət başçısı kimi qayıtmağı planlaşdıran keçmiş Amerika prezidenti Donald Trampa səs vermək niyyətində olub-olmaması sualına cavab verməyib. Sahibkar bunun çox çətin seçim olduğunu vurğulayıb. Bundan əvvəl ABŞ Nümayəndələr Palatasının spikeri Kevin Makkarti Trampın ABŞ prezident seçkilərində qalib gələcəyini bildirmişdi.

***Gülayə Mecid***

UNI-42_27 IYUI-QARA.qxd 11/30/2023 9:40 PM Page 16



# 7 güləşçimiz DÇ-də mübarizəyə başlayır

***Azərbaycanın daha 7 güləşçisi Bakıda hərbçilər arasında keçirilən güləş üzrə 36-cı dünya çempionatında çıxış edəcək.***

Medallar uğrunda 5 kişi və 2 qadın təmsilçimiz mübarizə aparacaq.

Məşqçilər korpusunun etimadını Ceyhun Allahverdiyev (61 kq), Orxan Abbasov (79 kq), Fərid Cabbarov (86 kq), Zəfər Əliyev (97 kq), Rahid Həmidli (125 kq), Gültəkin Şirinova (53 kq) və Ruzanna Məmmədova (59 kq) doğrultmağa çalışacaqlar.



Qeyd edək ki, Azərbaycan güləşçiləri mundialın ilk günündə 4 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıblar. Əli Rəhimzadə (65 kq), Hacı Əliyev (70 kq), Turan Bayramov (74 kq) və İbrahim Yusubov (92 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Elnurə Məmmədova (50 kq) ikinci, Nərgiz Səmədova (55 kq) isə üçüncü yeri tutub.

# Okan Buruk hakimi tənqid etdi



***"Düşünürdüm ki, qalib gələ bilərik. Amma yenə erkən qol buraxdıq. Qapımıza 3 qol vuruldu. Həm qələbə qazana bilərdik, həm də məğlub ola bilərdik".***

QOL.az xəbər verir ki, bu sözləri "Qalatasaray"ın baş məşqçisi Okan Buruk Çempionlar Liqasının qrup mərhələsinin 5-ci turunda "Mançester Yunayted"lə heç-heçə etdikləri oyun (3:3) barədə danışarkən deyib.

O, komandasının yaxşı çıxış etdiyini, lakin matçın hakimlərindən narazı olduğunu bildirib: "Bizim matçımızın izlənildiyini, Türkiyə futbolunun, "Qalatasaray"ın tərifə layiq olduğunu gördük. Devinson Sançez bizim üçün çox vacib idi. Onun yoxluğu planlarımızı dəyişdirdi. Qələbə qazana bilmədiyimiz üçün məyusuq. Amma məğlub olmamaq da vacibdir. Oyun çox fərqli bir nəticə ilə də başa çata bilərdi. Penalti epizodumuz var idi. "Bavariya" ilə görüşdəki ofsayd epizodu kimi... Hakimin performansı rəqibin adına möhtəşəm idi. Bu da matçın nəticəsinə 5-10 faiz təsir edir. Pressinqimizi, hücumdakı oyunumuzu, topa sahib olmağımızı nəzərə alaraq deyə bilərəm ki, bu səviyyədə olan bir komanda ilə əla iş gördük. Azarkeşlərimiz bizə inanılmaz dərəcədə dəstək oldular. Onlara təşəkkür edirəm".

Qeyd edək ki, 5-ci tur matçından sonra "Qalatasaray" xallarının sayını 5-ə çatdıraraq A qrupunda 2-ci pilləyə yüksəlib. "Mançester Yunayted" isə sonuncu yerdədir. Erik ten Haqın komandasının 4 xalı var.

# Ramil Şeydayevdən Çin klubuna mesaj: "Sadəcə ünvanı göndər"

***Azərbaycan millisinin və Tailandın "Buriram Yunayted" klubunun futbolçusu Ramil Şeydayev "İnstaqram" hesabında etdiyi paylaşımla diqqət çəkib.***

QOL.az xəbər verir ki, dünən Asiya Çempionlar Liqasında Çinin "Zhejiang"ına qarşı matçından sonrahər iki komandanın oyunçuları və məşqçiləri arasında kütləvi dava düşüb. Şeydayev də münaqişənin iştirakçısı olub. Çin klubunun bir çox futbolçusu R.Şeydayevi döyüblər.



Ramil etdiyi paylaşımla Çin klubuna mesaj göndərib: "Mən hələ də burdayam, "Zhejiang". Sadəcə ünvanı göndər" yazıb.

Qeyd edək ki, görüş Çin təmsilçisinin 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

# Mahir Emreli "Astana" ilə oyun haqda danışdı

***Azərbaycan millisinin və "Dinamo"nun (Zaqreb, Xorvatiya) hücumçusu Mahir Emreli Konfrans Liqasının qrup mərhələsinin 5-ci turunda "Astana"ya (Qazaxıstan) qarşı keçirəcəkləri oyun haqda danışıb.***

QOL.az sportklub.n1info.hr-a istinadən xəbər verir ki, 26 yaşlı forvard oyunun çətin keçəcəyini bildirib: "Bizi çətin oyun gözləyir. İndiyədək "Astana"ya 5 dəfə qalib gəlsək də, bu oyun bizim üçün asan olmayacaq. Həm "Astana"ya, həm də bizə xal lazımdır. Yaxşı bir matç olacaq. Ümid edirəm ki, qələbə qazanacağıq". Qeyd edək ki, bu gün keçiriləcək "Astana" - "Dinamo" oyunu Bakı vaxtı ilə saat 19:30-da başlayacaq. C qrupunda "Astana" 4 xalla 2-ci, "Dinamo" isə 3 xalla 4-cüdür.





# "Sumqayıt"dan tarixi qələbə

***"Sumqayıt" tarixinin ən böyükhesablı qələbəsini qazanıb.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, Samir Abasovun baş məşqçisi olduğu komanda buna Azərbaycan kubokunun 2-ci təsnifat mərhələsində imza atıblar.

"Gənclik şəhəri" təmsilçisi "Lerik"lə səfər görüşündə 6:0 hesablı qələbə qazanıb. Bu, 2010-cü ildə yaradılan klubun tarixində 6 top fərqli ilk qələbədir.

"Sumqayıt" bunadək ən böyük qələbəsini Premyer Liqada əldə edib. 2022-ci il mayın 21-də "Səbail"lə ev görüşündə "Gənclik şəhəri" təmsilçisi 5 cavabsız qolla qalib gəlib.

# "Araz-Naxçıvan"dan ilklər



***Azərbaycan kubokunun 2-ci təsnifat mərhələsi "Araz-Naxçıvan" üçün ilklərlə əlamətdar olub.***

Azər Bağırovun baş məşqçisi olduğu komanda "Kür-Araz"a 6:1 hesabı ilə qalib gəlib.

Bu, Naxçıvan təmsilçisinin ölkə kubokunda ilk böyükhesablı qələbəsidir. Muxtar Respublika klubu bunadək yalnız minimal hesabla qalib gəlməyi bacarmışdı.

Bu qələbə həm də səfərdə əldə olunan ilk uğurdur. "Araz-Naxçıvan" səfərdə keçirdiyi əvvəlki matçların hamısında uduzmuşdu.

# "Mançester Yunayted"dən son 61 ilin antirekordu

***"Mançester Yunayted" bu mövsüm ilk 20 matçda 33 qol buraxıb.***

Bu barədə "Opta" məlumat yayıb. "Qırmızı şeytanlar" ötən gün Çempionlar Liqasının qrup mərhələsinin 5-ci turunda "Qalatasaray"la 3:3 hesablı heç-heçə ediblər. Nəticədə "Mançester Yunayted" 2023/24 mövsümündə 20 oyuna buraxdığı qolların sayını 33-ə çatdırıb. Bu isə son 61 ildəki antirekord deməkdir. Komanda son dəfə 1962/63 mövsümündə belə pis nəticə göstərib.

Qeyd edək ki, "Mançester Yunayted" hazırda 4 xalla Çempionlar Liqasının A qrupunun sonuncu pilləsində qərarlaşır. İngiltərə təmsilçisi 6-cı turda "Bavariya" ilə qarşılaşacaq. Görüş dekabrın 12-də, Bakı vaxtı ilə saat 00:00-da başlayacaq.

# Xavi istefaya göndərilir?

***"Barselona"nın idman direktoru Deko klubun baş məşqçisi Xavi barədə danışıb.***

Bu barədə "FC Barcelona Noticias" məlumat yayıb. O bildirib ki, Xavinin istefaya göndərə biləcəkləri ilə bağlı yayılan xəbərlər həqiqəti əkst etdirmir:

"Xavi bizim baş məşqçimizdir, onun bu yaxınlarda yenilədiyi müqaviləsi var. Bu söz-söhbətlərin yaranması "Barselona" üçün normaldır. Lakin hansısa klub baş məşqçi ilə müqaviləni yeniləyəndə, deməli, mütəxəssisə güvənilir".

Qeyd edək ki, bu yaxınlarda yenilənən müqaviləyə əsasən, 43 yaşlı mütəxəssis 2024-cü ilin yayınadək klubun baş məşqçici təyin edilib.